### “STAR RAFİNERİ” ZAVODUNUN AÇILIŞI AZƏRBAYCAN-TÜRKİYƏ QARDAŞLIQ ƏLAQƏLƏRİNİN TARİXİNDƏ ƏLAMƏTDAR HADİSƏDİR

Xəbər verildiyi kimi, oktyabrın 19-da Türkiyənin İzmir şəhərində Azərbaycanın investisiya qoyuluşu hesabına inşa edilən “Star” neft emalı zavodunun açılış mərasimi keçirilib. Tədbirə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan, Türkiyə Böyük Millət Məclisinin sədri Binəli Yıldırım, Türkiyənin energetika və təbii sərvətlər naziri Fatih Dönməz...




Bax səh. 3

### BAKININ NƏRİMANOV RAYONUNDA 11 SAYLI XÜSUSİ TƏHSİL MƏKTƏBİNİN YENİ BİNASININ AÇILIŞI OLUB

Birinci vitse-prezident Mehriban Əliyeva açılışda iştirak edib

Oktyabrın 23-də Bakının Nərimanov rayonunda Heydər Əliyev Fondunun təşəbbüsü ilə inşa olunan 11 saylı xüsusi təhsil məktəbinin yeni binasının açılışı olub. AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva açılışda iştirak edib. Məktəbin direktoru Şahzadə İsgəndərova burada yaradılan şərait barədə Birinci vitse-prezident Mehriban Əliyevaya...



Bax səh. 2



Yeni Azərbaycan Partiyası Azərbaycanı müstəqillik yolunda inkişaf etdirməyə qadir bir partiyadır


# YENİ AZƏRBAYCAN

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur. 24 oktyabr 2018-ci il, çərşənbə / № 201 (5328). Yeni Azərbaycan Partiyasının orqanı. Qiyməti 40 qəpik


# Azərbaycan Prezidenti İlham Əliyev Rusiyanın daxili işlər nazirini qəbul edib





## Prezidentin iş günü

Prezident İlham Əliyev Qobustan rayonunun Qobustan-Poladlı avtomobil yolunun tikintisi ilə bağlı tədbirlər haqqında Sərəncam imzalayıb.

### Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyeva İmam Hüseyn məscidinin bərpadan sonra açılışında iştirak edib

Oktyabrın 23-də Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva Bakının Yasamal rayonunda Heydər Əliyev Fondunun dəstəyi ilə bərpa olunmuş İmam Hüseyn məscidinin açılışında iştirak edib. Cəmiyyətin, ölkənin dayanıqlı inkişafı üçün dövlət-din münasibətlərinin çox böyük əhəmiyyəti var. Azərbaycanda bu münasibətlər yüksək səviyyədə tənzimlənir. Vətəndaşlarının əksəriyyəti müsəlman olan Azərbaycanda məscidlərin, eyni zamanda, rus pravoslav, katolik, alban kilsələrinin, sinaqoqların tikilməsi və təmiri dövlətin...

Bax səh. 2

### Nazirlər Kabinetinin rəsmi internet saytı rus dilində də fəaliyyətə başlayıb

Son vaxtlar ölkədə tətbiq olunan Elektron hökumət konsepsiyasının tələblərinə uyğun olaraq, Nazirlər Kabineti Aparatının rəsmi internet saytında (www.cabmin.gov.az) yeni struktur dəyişiklikləri aparılıb. Sayt daha da təkmilləşdiriləcək...



Bax səh. 4

### Xocalı soyqırımı haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması ilə bağlı məqsədyönlü tədbirlər səmərəli nəticələr verir

Azərbaycanda dövlət siyasətinin mühüm istiqamətlərindən birini ölkə həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılması təşkil edir. Eyni zamanda, Dağlıq Qarabağ və yeddi ətraf rayonun Ermənistanın işğalından azad edilməsi istiqamətində davam etdirilən fəaliyyətin mühüm tərkib hissəsi olaraq Azərbaycan həqiqətlərinin, o cümlədən xalqımıza qarşı törədilən vəhşiliklərin dünyaya çatdırılması məqsədilə ardıcıl və səmərəli iş aparılır...

Bax səh. 4



### YAP-IN SƏDR MÜAVİNİ ƏLİ ƏHMƏDOV TACİKİSTANIN ÖLKƏMİZDƏKİ SƏFİRİ İLƏ GÖRÜŞÜB

Azərbaycan Respublikası Baş nazirinin müavini, Yeni Azərbaycan Partiyasının (YAP) Sədr müavini - İcra katibi Əli Əhmədov oktyabrın 23-də Tacikistan Respublikasının Azərbaycandakı fövqəladə və...

Bax səh. 4

### UĞURLU NƏTİCƏLƏR AZƏRBAYCANIN DİNAMİK İNKİŞAF YOLUNDA OLDUĞUNU BİR DAHA TƏSDİQLƏYİR

...Ulu öndər Heydər Əliyevin yaratmış olduğu mükəmməl inkişaf doktrinasının təməlləri üzərində inkişaf etdirilən və yeni iqtisadi qanunauyğunluqlar üzərində diversifikasiya olunan fundamental konsepsiyanın həyata keçirilməsi ölkəmizin iqtisadi dayanıqlılığını artıran əsas amillərdəndir. Prezident İlham Əliyevin yaratdığı yeni makroiqtisadi platforma və inkişaf formulu Azərbaycanın son illər proqressiv meyillərlə irəliləməsinin əsas konseptlərini təşkil edib. Makroiqtisadi sabitliyin qorunub saxlanması, enerji, ərzaq və ekoloji təhlükəsizliyin təmin olunması, iqtisadiyyatın diversifikasiyası, bütün sahələrdə inkişaf strategiyasının uğurla həyata keçirilməsi nəticəsində bu gün Azərbaycan bütövlükdə Cənubi Qafqazın lideri və dünyanın ən sürətli inkişaf tempinə malik ölkələrindən biridir. Bunu bir neçə gün öncə açıqlanan Dünya İqtisadi Forumunun Qlobal Rəqabətlilik Hesabatı da təsdiqləyir. Təbii ki, ölkəmizdə istər neft, istərsə də...

Bax səh. 7




### BAKIDA “MÜASİR AZƏRBAYCANDAN TARİXİ ŞİRVANŞAHLAR DÖVLƏTİNƏ SƏYAHƏT” MÖVZUSUNDA BEYNƏLXALQ ELMİ KONFRANS KEÇİRİLİB

Oktyabrın 23-də Bakı Konqres Mərkəzində “Müasir Azərbaycandan tarixi Şirvanşahlar dövlətinə səyahət” mövzusunda beynəlxalq elmi konfrans işə başlayıb...

Bax səh. 5

### “Qlobal miqrasiya böhranı: Beynəlxalq münasibətlər və Qərb siyasəti yeni tarixi dönüş ərəfəsində” kitabı çapdan çıxıb

Azərbaycan Respublikasının Baş naziri Novruz Məmmədovun ideya müəllifliyi və baş redaktorluğu ilə “Qlobal miqrasiya böhranı: Beynəlxalq münasibətlər və Qərb siyasəti yeni tarixi dönüş ərəfəsində”...




Bax səh. 4

### Bakıda Azərbaycan və Rusiya Daxili İşlər nazirliklərinin xüsusiləşdirilmiş İşçi Qrupunun növbəti iclası keçirilib

Azərbaycan Respublikasının daxili işlər naziri, general-polkovnik Ramil Usubovun dəvəti ilə...



Bax səh. 5

### Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Asiya İnkişaf Bankının vitse-prezidenti ilə görüşüb

Oktyabrın 23-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Asiya İnkişaf Bankının vitse-prezidenti Vençay Janq ilə görüşüb...



Bax səh. 4

### Milli-mənəvi dəyərlərimizin qorunması dövlət-din siyasətinin tərkib hissəsidir

Oktyabrın 23-də Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi (DQİDK) və Göyçay Rayon İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə “Azərbaycanın dövlət-din modeli: əsas istiqamətlər”...



Bax səh. 6

### Səməd Seyidov: Fransa bələdiyyə başçılarının Azərbaycanın işğal olunmuş ərazilərinə qanunsuz səfərləri birbaşa təxribatdır

Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri Səməd Seyidov Fransanın Alforvil...



Bax səh. 6

# Azərbaycan Prezidenti İlham Əliyev Rusiyanın daxili işlər nazirini qəbul edib

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 23-də Rusiya Federasiyasının daxili işlər naziri Vladimir Kolokoltsevi qəbul edib.

AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı Vladimir Kolokoltsevin Azərbaycana səfərini əlaqələrimizin yaxşı göstəricisi kimi dəyərləndirərək, iki ölkənin Daxili İşlər nazirlikləri arasında qarşılıqlı fəaliyyətin yüksək səviyyədə olduğunu qeyd edib. Azərbaycan ilə Rusiyanın dost ölkələr olduğunu vurğulayan Prezident İlham Əliyev ölkələrimizin bütün istiqamətlərdə fəal əməkdaşlıq həyata keçirdiyini bildirib. Dövlətimizin başçısı bu baxımdan ölkələrimizin Daxili İşlər nazirlikləri arasında çox səmərəli əməkdaşlığın həyata keçirilməsindən məmnunluğunu ifadə edib.

Prezident İlham Əliyev Azərbaycan ilə Rusiya arasında ikitərəfli münasibətlərə toxunaraq, sentyabr ayında özünün Rusiya Federasiyasına rəsmi səfərini, sonra isə Rusiya Prezidenti Vladimir Putinin Azərbaycana səfərini ölkələrimiz arasında mövcud olan qarşılıqlı fəaliyyətin xarakterinin və etimadın əyani nümunəsi kimi dəyərləndirib. Dövlətimizin başçısı



qeyd edib ki, bu səfərlər zamanı digər məsələlərlə yanaşı, hüquq-mühafizə orqanları arasında əlaqələr də müzakirə edilib və bu sahədə də əməkdaşlıqdan məmnunluq ifadə olunub.

Rusiya Federasiyasının daxili işlər naziri Vladimir Kolokoltsev qəbula görə minnətdarlığını bildirib. O qeyd edib ki, bu ilin iyul ayında MDB ölkələrinin Daxili İşlər Nazirləri Şurasının Bakıda keçirilən iclasının iştirakçılarını qəbul edən zaman Birinci vitse-prezident Mehriban Əliyeva tərəfindən söylənilən xoş sözlər tədbir iştirakçılarında böyük məmnunluq hissi doğurub.

Ölkələrimizin ikitərəfli münasibətlərinə toxunan Vladimir Kolokoltsev bildirib ki, dövlət başçıları arasında son bir ildə 5 görüşün keçirilməsi bu münasibətlərin inkişaf strategiyasının bundan sonra da möhkəmləndirilməsinin vacib olduğunu göstərir. Eyni zamanda, Aktau şəhərində Xəzəryanı dövlətlərin başçıları tərəfindən imzalanmış sənədlər də hüquq-mühafizə orqanlarının qarşılıqlı fəaliyyəti üçün bir təkan rolu oynayıb.

Görüşdə əməkdaşlığın perspektivləri ətrafında fikir mübadiləsi aparılıb.

## Bakının Nərimanov rayonunda 11 saylı xüsusi təhsil məktəbinin yeni binasının açılışı olub

### *Birinci vitse-prezident Mehriban Əliyeva açılışda iştirak edib*



Oktyabrın 23-də Bakının Nərimanov rayonunda Heydər Əliyev Fondunun təşəbbüsü ilə inşa olunan 11 saylı xüsusi təhsil məktəbinin yeni binasının açılışı olub.

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva açılışda iştirak edib.

Məktəbin direktoru Şahzadə İsgəndərova burada yaradılan şərait barədə Birinci vitse-prezident Mehriban Əliyevaya məlumat verib. Bildirib ki, 11 saylı xüsusi təhsil məktəbi 1937-ci ildən fəaliyyət göstərir. Bu təhsil ocağının köhnə binası 1897-ci ildə inşa edilmişdi. Heydər Əliyev Fondu tərəfindən aparılan monitorinq nəticəsində məktəb binasının təhsilə tam yararsız olduğu aşkar edilmiş və Nərimanov rayonunda məktəb üçün yeni binanın inşasına qərar verilmişdir.











Birinci vitse-prezident Mehriban Əliyeva məktəbin rəmzi açılışını bildirən lenti kəsib və bu təhsil ocağında yaradılan şəraitlə tanış olub.

Qeyd edilib ki, təhsil müəssisəsinin binasının ümumi sahəsi 4 min kvadratmetrdən çoxdur. Burada 21 sinif otağı, psixoloq, defektoloq, həkim otaqları, idman və akt zalları, yeməkxana var. Eyni zamanda, burada uşaqların istifadəsi üçün kitabxana yaradılıb.

Məktəbin üçmərtəbəli binası 250 şagird yerlikdir. Hazırda 651 nəfər evdə, 137 şagird isə məktəbdə təhsil alır. Məktəbdə 289 müəllim çalışır və onlar autizm, Daun sindromlu, ümumtəhsil proqramını mənimsəyə bilməyən və əqli inkişaf geriliyi diaqnozu olan uşaqlara təlim keçirlər. Ümumtəhsil proqramını mənimsəyə bilməyən şagirdlər də il ərzində aşkarlanaraq bu məktəbə yönləndirilir. Onillik məktəbin tədris planına defektoloq saatları daxil edilib. Eyni zamanda, xüsusi uşaqlar üçün psixoloq saatları ayrılıb. Texnologiya dərslərində isə uşaqların bacarıqları aşkar olunur. Bir sözlə, bu məktəbdə xüsusi qayğıya ehtiyacı olan uşaqların təhsil alması, onların təlim-tərbiyəsi ilə hərtərəfli məşğul olmaq üçün bütün imkanlar mövcuddur. Bütün bunlar isə xüsusi qayğıya ehtiyacı olan insanların sosial müdafiəsinin gücləndirilməsi, onların həyat şəraitinin yaxşılaşdırılması, bu qəbildən olanların təhsil problemlərinin həlli istiqamətində son illərdə Prezident İlham Əliyevin rəhbərliyi ilə əhəmiyyətli addımların atılmasından irəli gəlir. 11 saylı xüsusi təhsil məktəbinin yeni binasının Heydər Əliyev Fondunun təşəbbüsü ilə müasir səviyyədə inşa olunması bir daha sübut edir ki, Fond da bu istiqamətdə dövlətin icra etdiyi layihələrə sanballı töhfələr verir. Bu layihənin icrası aydın şəkildə göstərir ki, humanizm, insani dəyərlərə hörmət, dinindən, dilindən, cinsindən, yaşından asılı olmayaraq hər kəsə diqqət göstərmək Heydər Əliyev Fondunun fəaliyyətində əsas prinsiplərdən biridir.

Məktəbin həyətində geniş abadlıq-quruculuq işləri aparılıb, yaşıllıq zonası yaradılıb, istirahət köşkləri qurulub.

11 saylı xüsusi təhsil məktəbinin yeni binasında yaradılan şəraitlə tanış olan Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyeva bu təhsil ocağına fəaliyyətində uğurlar arzulayıb.

## Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyeva İmam Hüseyn məscidinin bərpadan sonra açılışında iştirak edib



Oktyabrın 23-də Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva Bakının Yasamal rayonunda Heydər Əliyev Fondunun dəstəyi ilə bərpa olunmuş İmam Hüseyn məscidinin açılışında iştirak edib.

Cəmiyyətin, ölkənin dayanıqlı inkişafı üçün dövlət-din münasibətlərinin çox böyük əhəmiyyəti var. Azərbaycanda bu münasibətlər yüksək səviyyədə tənzimlənir. Vətəndaşlarının əksəriyyəti müsəlman olan Azərbaycanda məscidlərin, eyni zamanda, rus pravoslav, katolik, alban kilsələrinin, sinaqoqların tikilməsi və təmiri dövlətin bu istiqamətdə apardığı siyasətin göstəricisidir. Bu sahədə Heydər Əliyev Fondunun da gördüyü işlər böyük əhəmiyyətə malikdir.

AZƏRTAC xəbər verir ki, məscidin axundu Hacı Əbdül Birinci vitse-prezident, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevaya İmam Hüseyn məscidi barədə məlumat verib.

Bildirilib ki, məscid 1890-cı ildə xeyriyyəçi Hacı Hacıbala tərəfindən tikilib. 1920-ci ildə bolşevik işğalından sonra məscid bir müddət bağlı qalıb. Lakin sonralar yenidən dindarların istifadəsinə verilib. Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra məscid təmir olunub.





Azərbaycanın qədim məscidlərindən biri olan İmam Hüseyn məscidində 2017-ci ildə Heydər Əliyev Fondunun dəstəyi ilə əsaslı təmir və bərpa işlərinə başlanılıb. Yüksək keyfiyyətlə aparılan təmir zamanı binanın memarlıq üslubu qorunub saxlanılıb, ərazisi abadlaşdırılıb. Məscidin sahəsi 300 kvadratmetrdir. Burada eyni vaxtda 400 nəfər ibadət edə bilər. İmam Hüseyn məscidinin ərazisində 130 nəfərlik mərasim zalı da inşa olunub.

Azərbaycanda dini-mənəvi dəyərlərin qorunmasına hər zaman yüksək diqqət göstərilib. Son bir neçə ildə ölkədə onlarla məscid, ibadətgah və dini ziyarətgah təmir olunaraq xalqın istifadəsinə verilib. Təbii ki, bu prosesdə Heydər Əliyev Fondu da xüsusi fəaliyyəti ilə seçilib. Fondun dəstəyi ilə bərpa olunan İmam Hüseyn məscidinin istifadəyə verilməsi də milli-mənəvi dəyərlərin qorunması istiqamətində həyata keçirilən tədbirlərdəndir.

Məscidin axundu Hacı Əbdül Birinci vitse-prezident Mehriban Əliyevaya Müqəddəs Qurani-Kərim hədiyyə edib.

Dövlət-din münasibətlərinin Azərbaycan modeli bu gün dünyanın müxtəlif ölkələrində öyrənilir. Azərbaycanın bu istiqamətdəki siyasəti artıq özünü həm ölkəmizdə, həm bölgədə və həm də dünyada təsdiq edib. Azərbaycan öz milli-mənəvi, dini dəyərlərinə sadiq, onları qoruyan, eyni zamanda, müsəlman aləmində həmrəyliyin möhkəmləndirilməsi üçün səylərini əsirgəməyən bir ölkə kimi tanınır.

# “Star Rafineri” zavodunun açılışı Azərbaycan-Türkiyə qardaşlıq əlaqələrinin tarixində əlamətdar hadisədir

## *Prezident İlham Əliyev: Bu layihənin həyata keçməsinin əsas səbəbi Türkiyə-Azərbaycan dostluğu, qardaşlığıdır*

*Xəbər verildiyi kimi, oktyabrın 19-da Türkiyənin İzmir şəhərində Azərbaycanın investisiya qoyuluşu hesabına inşa edilən “Star” neft emalı zavodunun açılış mərasimi keçirilib. Tədbirə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan, Türkiyə Böyük Millət Məclisinin sədri Binəli Yıldırım, Türkiyənin energetika və təbii sərvətlər naziri Fatih Dönməz, Türkiyənin xəzinə və maliyyə naziri Berat Albayrak, SOCAR-ın prezidenti Rövnəq Abdullayev və iki qardaş ölkənin digər yüksək səviyyəli rəsmiləri qatılıblar. Avropa, Yaxın Şərq və Afrika bölgələrində ən böyük müəssisələrdən biri olan “Star” neft emalı zavodunun açılışı bir çox cəhətdən diqqəti cəlb edir. Açılış mərasimində çıxış edən Prezident İlham Əliyev “Star Rafineri”nin açılışını Türkiyə-Azərbaycan qardaşlıq əlaqələrinin tarixində əlamətdar hadisə kimi səciyyələndirib.*




### “STAR RAFİNERİ” ZAVODUNUN İSTİFADƏYƏ VERİLMƏSİ TÜRKİYƏ-AZƏRBAYCAN BİRLİYİNİN, HƏMRƏYLİYİNİN, DOSTLUĞUNUN ƏLAMƏTİDİR

Türkiyə və Azərbaycan dünyada bir-birinə ən yaxın olan ölkələrdir. Dünyada iki qardaş xalqın və ölkənin dostluğuna xələl gətirə biləcək güc, qüvvə yoxdur. Azərbaycanla Türkiyənin dostluq, qardaşlıq münasibətlərinin mahiyyəti hələ XX əsrin əvvəllərində Türkiyənin Ulu öndəri Mustafa Kamal Atatürkün ifadə etdiyi “Azərbaycanın sevinci sevincimiz, kədəri kədərimizdir”, XX əsrin sonlarında isə bütün Türk dünyasının daha bir görkəmli şəxsiyyəti, Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyevin söylədiyi “Bir millət, iki dövlət” kəlamlarında ifadə olunub. Azərbaycanın dövlət başçısı İlham Əliyev isə bəhs olunan çıxışında Türkiyə ilə Azərbaycan arasında münasibətlərin ən yüksək səviyyədə olduğuna bir daha diqqət çəkib: **“Bu gün Türkiyə-Azərbaycan əlaqələri ən yüksək səviyyədədir. Bu da təbiidir, çünki əsrlər boyu biz birlikdə yaşamışıq, bir yerdə olmuşuq. Tarixin bəzi məqamları bizi bir-birimizdən ayırıb, amma bu, müvəqqəti xarakter daşıyırdı. Biz yüz il bundan əvvəl birlikdə idik, ondan əvvəlki dövrdə də birlikdə idik, bu gün də bir yerdəyik”.**

*“Əminəm ki, bundan sonra da Türkiyə və Azərbaycan yalnız uğurlar yolu ilə gedəcək”*

Azərbaycanla Türkiyənin dostluğuna aid çoxlu faktlar sadalamaq mümkündür. Türkiyə ən çətin məqamlarda Azərbaycana qardaşlıq köməyi göstərib. Bu barədə söhbət açarkən 1918-ci il sentyabrın 15-də baş verən hadisələri xüsusi qeyd etmək lazımdır. Xalqımız 1918-ci il sentyabrın 15-də Nuru paşanın komandanlığı altında Qafqaz İslam Ordusu və yeni yaradılmış Azərbaycan Milli Ordusu tərəfindən Bakının erməni-bolşevik işğalından azad edilməsini daim minnətdarlıq hissi ilə xatırlayır. İşğaldan azad edilən Bakı öz sahibinə, Azərbaycan xalqına qaytarıldı və bir neçə gün sonra Azərbaycan Xalq Cümhuriyyətinin paytaxtı elan edildi. Bu, unudulmaz tarixdir. Həmin tarixdən 100 il sonra Türkiyə və Azərbaycan prezidentlərinin iştirakı ilə Bakıda təşkil edilmiş möhtəşəm hərbi parad iki ölkənin dostluğunun, qardaşlığının əbədi və sarsılmaz olduğunu bütün dünyaya göstərdi.

Bir neçə gün bundan əvvəl Azərbaycan xalqı respublikamızın müstəqilliyinin bərpasının 27-ci ildönümünü qeyd etdi. Əlamətdar haldır ki, Azərbaycanın XX yüzillikdə ikinci dəfə qazandığı müstəqilliyini ilk dəfə tanıyan dövlət də məhz Türkiyə olub. Bunu yüksək dəyərləndirən Prezident İlham Əliyev vurğulayıb: **“Azərbaycanın müstəqilliyini ilk tanıyan ölkə Türkiyə olmuşdur. Bu tarix çox şərəfli tarixdir. O gündən bu günə qədər biz daim bir yerdəyik. Siyasi əlaqələrimiz ən yüksək zirvəyə qalxmışdır. İqtisadi sahədə çox böyük işlər görmüşük”.**

Türkiyə respublikamızın Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində apardığı siyasətə hərtərəfli dəstək verir. Qardaş ölkə Azərbaycana qarşı apardığı ilhaq siyasətinə cavab olaraq işğalçı dövlətlə bütün siyasi-iqtisadi əlaqələri dayandırıb, eyni zamanda, 1993-cü ildən etibarən Ermənistanla sərhədlərini bağlayıb.

Öz növbəsində Azərbaycan da ermənilərin Türkiyəyə qarşı irəli sürdükləri ərazi və “soyqırımı” iddialarına layiqli cavab verilməsində daim qardaş ölkənin yanındadır. Praqada Avropa İttifaqının “Şərq Tərəfdaşlığı” proqramı çərçivəsində keçirilən iclasda Azərbaycan Prezidentinin nümayiş etdirdiyi qətiyyətli mövqe - sammitə Türkiyə təmsilçisinin qatılmamasından istifadə edərək rəsmi Ankaranın ünvanına hədyanlar söyləməyə çalışan və qondarma “soyqırımı” sayıqlamalarını dilə gətirən Ermənistanın sabiq prezidenti Serj Sarkisyana tutarlı cavab verməsi bundan sonra da yaddaşlardan silinməyəcək.

Azərbaycan həmçinin Türkiyənin FETÖ, PKK, PYD, YPG, İŞİD terror qruplaşmalarına qarşı apardığı ədalətli mübarizəyə dəstək nümayiş etdirir. Qardaş ölkənin başladığı və uğurla tamamladığı “Zeytun budağı” əməliyyatının aparılmasında Azərbaycan dövləti və xalqı birmənalı şəkildə Türkiyənin yanında olub.

*“Bu gün Türkiyə-Azərbaycan əlaqələri ən yüksək səviyyədədir. Bu da təbiidir, çünki əsrlər boyu biz birlikdə yaşamışıq, bir yerdə olmuşuq”*

Sadalanan faktlar Türkiyə-Azərbaycan qardaşlığının parlaq səhifələridir. Eyni zamanda, getdikcə artan iqtisadi əlaqələr, qarşılıqlı investisiya qoyuluşu da iki ölkə arasında münasibətlərin möhkəmlənməsində mühüm rol oynayır. Bu baxımdan İzmirdə yeni istifadəyə verilən zavodun da böyük əhəmiyyəti var. Belə nəhəng müəssisənin yaradılması iki qardaş ölkənin gücünü və bir-birinə olan böyük inamını bir daha təsdiqləyir. Bu kimi amillərə diqqət çəkən Prezident İlham Əliyev **“Bu gün “Star Rafineri”nin açılışı timsalında biz birliyimizin, həmrəyliyimizin, dostluğumuzun əlamətini görürük. Əminəm ki, bundan sonra da Türkiyə və Azərbaycan yalnız uğurlar yolu ilə gedəcək”,** - deyə vurğulayıb.

### İZMİRDƏ “STAR RAFİNERİ”NİN AÇILIŞI VƏ DİGƏR NƏHƏNG LAYİHƏLƏR TÜRKİYƏ VƏ AZƏRBAYCAN LİDERLƏRİNİN GÜCLÜ SİYASİ İRADƏSİNİ TƏCƏSSÜM ETDİRİR

Son illərdə iki qardaş ölkə regional və qlobal əhəmiyyət daşıyan bir sıra enerji, nəqliyyat və digər layihələrin əsas təşəbbüskarları və fəal iştirakçıları qismində çıxış ediblər. Azərbaycanın zəngin enerji ehtiyatları məhz qardaş Türkiyədən keçən dəhlizlər, o cümlədən də Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum xətləri ilə daşınaraq dünya bazarlarına çıxarılır. Bunlar mükəmməl enerji infrastrukturudur və ötən illərdə hər iki ölkənin iqtisadiyyatına böyük fayda gətirib. Heç bir şübhə yoxdur ki, Azərbaycan və Türkiyə hələ uzun illər bundan sonra da bu kəmərlərdən iqtisadi fayda götürəcəklər. İki qardaş ölkənin təşəbbüsləri ilə reallaşdırılan və 2017-ci ildə istifadəyə verilən Bakı-Tbilisi-Qars dəmir yolu layihəsinin də iqtisadi səmərəsi kifayət qədər böyükdür. Hazırda hər iki ölkə rəhbərliyi dünyanın ən mühüm nəqliyyat dəhlizlərindən biri olan bu dəmir yolu xəttinin daha da məhsuldar işləməsi üçün birgə səylər göstərirlər.

2018-ci ilin yayında Azərbaycan qazının Avropaya daşınması məqsədilə inşa edilən Cənub Qaz Dəhlizinin mühüm seqmentlərindən birinin - TANAP-ın istifadəyə verilməsi çox haqlı olaraq Türkiyə-Azərbaycan dostluğunun növbəti zəfəri kimi dəyərləndirilir. TANAP üzrə anlaşmanı 2012-ci ildə İstanbul şəhərində Azərbaycan Prezidenti İlham Əliyev və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan imzalayıblar. Xatırladaq ki, uzunluğu 1805 kilometr olan TANAP boru kəmərinin diametri 56 və 48 düym, Mərmərə dənizi boyunca isə 36 düym təşkil edir. Kəmərin dəniz səviyyəsindən maksimal hündürlüyü 2700 metr yüksəklikdə yerləşir. Kəmərdən Türkiyə qazpaylama sisteminə iki qol ayrılıb və onun maksimum illik ötürücülük qabiliyyəti 31 milyard kubmetrdir. Layihənin ilkin mərhələsində illik ötürücülük qabiliyyəti 16 milyard kubmetr qaz təşkil edəcək. TANAP Azərbaycandan başlayan genişlənmiş Cənubi Qafqaz boru kəmərini Avropa İttifaqında bir neçə kəmərlə əlaqələndirəcək. 2020-ci ildə bu kəmərlə nəql olunacaq qazın həcmi ildə 16 milyard, 2023-cü ildə 23 milyard, 2026-cı ildə isə 31 milyard kubmetrə çatdırılacaq. İlk dövrdə TANAP kəməri ilə nəql olunacaq 16 milyard kubmetr Azərbaycan qazının 10 milyard kubmetri Avropaya, 6 milyard kubmetri isə Türkiyəyə satılacaq.

Sadalanan bu və ya digər layihələrin ərsəyə gəlməsində Azərbaycan Prezidenti İlham Əliyevin və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın siyasi iradəsi mühüm rol oynayıb. Sirr deyil ki, müəyyən güc mərkəzləri iki qardaş ölkənin əməkdaşlığını əngəlləmək, o cümlədən də hansısa bir formada bəhs olunan layihələrin qarşısını almaq üçün dəridən-qabıqdan çıxırdılar. Ayrı-ayrı mərhələlərdə layihələrin texniki parametrləri, investisiya xərcləri, təhlükəsizlik kimi məsələlər müzakirə mövzusuna çevrilmişdi. Bu dairələr ciddi-cəhdlə qeyd olunan layihələrin səmərəli olmayacağını əsaslandırmağa çalışırdılar. Lakin zaman Azərbaycan və Türkiyə prezidentlərinin siyasi qətiyyətinin nə qədər güclü olduğunu bütün dünyaya göstərdi. Xatırlatmaq yerinə düşər ki, 2006-cı ildə Bakı-Tbilisi-Ceyhan neft kəmərinin, 2007-ci ildə Bakı-Tbilisi-Ərzurum qaz kəmərinin, 2017-ci ildə Bakı-Tbilisi-Qars dəmir yolunun və 2018-ci ildə TANAP-ın açılışında Azərbaycan Prezidenti İlham Əliyev və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan birlikdə iştirak ediblər.

Ümumiyyətlə, Azərbaycanın və Türkiyənin dövlət başçıları arasında əsl qardaşlıq münasibətləri mövcuddur. Bu amil də iki ölkə arasında əlaqələrin inkişafına daha güclü impuls verir. Qeyd etmək yerinə düşər ki, Azərbaycan Prezidenti İlham Əliyev 2018-ci ildə qardaş ölkədə üç dəfə səfərdə olub. Eyni zamanda, Türkiyənin dövlət başçısı Rəcəb Tayyib Ərdoğan bu il Azərbaycana iki dəfə səfər edib. Bu səfərlərin sayı özlüyündə Türkiyə-Azərbaycan əlaqələrinin, qarşılıqlı etimadın ən yüksək səviyyədə olduğunu təsdiqləyir.

*“Star Rafineri”nin yaradılması üçün Azərbaycan 6,3 milyard dollar yatırım edib. Növbəti mərhələdə əlavə 700 milyon dollar yatırım ediləcəkdir. Bu, bizim xaricə qoyduğumuz ən böyük yatırımımızdır və bu, təbiidir”*

Yuxarıda bəhs olunan layihələr, o cümlədən də İzmirdə “Star Rafineri”nin açılışı da Türkiyə və Azərbaycan liderlərinin güclü siyasi iradəsini təcəssüm etdirir. Prezident İlham Əliyevin bildirdiyi kimi, İzmirdə yeni nəhəng müəssisənin istifadəyə verilməsi onu göstərir ki, belə nəhəng layihələrin icrası üçün Türkiyə və Azərbaycan liderlərində güclü siyasi iradə var. **“Biz “Star Rafineri”nin açılışına toplaşmışıq. Xatırlayıram ki, 7 il bundan əvvəl əziz qardaşım Rəcəb Tayyib Ərdoğanla burada, Əliağada “Star”ın təməlini qoyduq və bu gün bu nəhəng layihənin açılışını bərabər edirik. Bu, bir daha onu göstərir ki, biz qarşımıza qoyduğumuz bütün hədəflərə uğurla çatırıq. Bir daha onu göstərir ki, belə nəhəng layihələrin icrası üçün Türkiyə və Azərbaycan liderlərində güclü siyasi iradə var. Bu layihənin həyata keçməsinin əsas səbəbi Türkiyə-Azərbaycan dostluğu, qardaşlığıdır”,** - deyə Azərbaycanın dövlət başçısı vurğulayıb.

### AZƏRBAYCAN VƏ TÜRKİYƏNİN HƏYATA KEÇİRDİYİ NƏHƏNG LAYİHƏLƏR HƏM İKİ DÖVLƏT VƏ XALQ, HƏM DƏ BÖLGƏ VƏ DÜNYA ÜÇÜN ÇOX BÖYÜK ÖNƏM DAŞIYIR

Azərbaycanla Türkiyənin həyata keçirdiyi nəhəng layihələr həm iki dövlət və xalq, həm də bölgə və dünya üçün çox böyük önəm daşıyır. İndiyədək hər iki qardaş ölkə Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum enerji kəmərlərinin, Bakı-Tbilisi-Qars dəmir yolu xətlərinin uğurlu istismarından böyük iqtisadi fayda götürüblər. Cənub Qaz Dəhlizi də bu baxımdan istisna deyil. Bəhs olunan infrastruktur layihələri regional əməkdaşlığı dərinləşdirir. Vurğulamaq yerinə düşər ki, haqqında danışdığımız layihələrin icrasında region dövlətləri yaxından iştirak ediblər. Beynəlxalq tərəfdaşlar, maliyyə qurumları da layihələrə öz güclü dəstəklərini göstəriblər. Burada Avropa İttifaqına üzv dövlətlərin, Amerika Birləşmiş Ştatlarının rolunu xüsusi qeyd edə bilərik. Səmərəli regional və qlobal əməkdaşlıq formatlarından kənarda layihələrin reallaşdırılmasında hər hansı uğurdan da söhbət açmaq mümkün olmazdı. Prezident İlham Əliyev Türkiyə və Azərbaycanın birgə reallaşdırdığı layihələrin əhəmiyyətinə diqqət çəkərək deyib: **“Star Rafineri”nin yaradılması üçün Azərbaycan 6,3 milyard dollar yatırım edib. Növbəti mərhələdə əlavə 700 milyon dollar yatırım ediləcəkdir. Bu, bizim xaricə qoyduğumuz ən böyük yatırımımızdır və bu, təbiidir. Eyni zamanda, biz digər önəmli layihələri birlikdə həyata keçirdik. Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum, TANAP neft-qaz kəmərlərinin, Cənub Qaz Dəhlizinin, Bakı-Tbilisi-Qars dəmir yolunun yaradılması - bunların hər biri özlüyündə nəhəng bir layihədir və nəinki ölkələrimiz, xalqlarımız üçün, bölgə, dünya, Avrasiya üçün çox böyük önəm daşıyır”.**

*“Türkiyə və Azərbaycan birgə səylərlə güclü siyasi iradə nümayiş etdirərək Avrasiyanın enerji və nəqliyyat xəritəsini yenidən cızır”*

Hər iki ölkənin imkanlarının təqdim olunması və qazanc imkanlarının artması baxımından İzmirdə istifadəyə verilən yeni müəssisə də böyük əhəmiyyətə malikdir. Müəssisənin texniki parametrləri kifayət qədər genişdir. Belə ki, “Star” zavodunun ümumi neft emalı gücü 10 milyon ton təşkil edəcək və müəssisənin əsas xammal tədarükçüsü kimi Azərbaycan Respublikası Dövlət Neft Şirkəti - SOCAR çıxış edir. SOCAR-ın Türkiyənin İzmir şəhərinin Əliağa rayonunda, “Petkim” neft-kimya kompleksinin ərazisində inşa etdiyi bu zavodda avqustdan etibarən sınaq məqsədilə xam neft emalına başlanılıb. Zavoda ilk neft yükü məhz Azərbaycandan olmaqla 80 min ton “Azeri Light” markalı neft çatdırılıb. Zavod 5 milyon ton dizel yanacağı istehsal etmək imkanına malikdir və Türkiyənin idxalının 40 faizə düşməsinə səbəb olacaq. Həmçinin mayeləşdirilmiş qazın idxal səviyyəsi də 70 faizə enəcək. “Star” neftin qiymətindən asılı olaraq hər il 6-8 milyard dollarlıq ticarət həcmi formalaşdıracaq. Layihənin həyata keçirilmə müddətində burada 19 min 500 işçi çalışıb. Zavod istehsala başladığı zaman 1100 nəfər yeni iş yeri ilə təmin olunacaq.

“Star” neft emalı zavodunda ildə 1,6 milyon ton nafta, 1,6 milyon ton təyyarə yanacağı, 4,8 milyon ton az kükürdlü dizel yanacağı, 700 min ton neft koksu, 420 min ton qarışıq ksilen və 160 min ton kükürd istehsal olunacaq. Zavod “Petkim” neft-kimya kompleksinin nafta və qarışıq ksilenə olan tələbatını tam ödəyəcək. Bu müəssisə Türkiyədə iqtisadiyyatın və sənayenin inkişafına töhfə verməklə strateji məhsulların istehsalında əhəmiyyətli rola malikdir. Belə ki, o, Türkiyənin idxaldan asılılığını azaltmaqla ölkə iqtisadiyyatına 1,5 milyard dollar əlavə gəlir qazandıracaq.

### REGİONDA YARADILAN YENİ ENERJİ VƏ NƏQLİYYAT XƏRİTƏLƏRİNİN ALTINDA AZƏRBAYCANIN VƏ TÜRKİYƏNİN İMZALARI VAR

Türkiyə və Azərbaycanın birgə səylərlə reallaşdırdıqları layihələr bütövlükdə Avrasiyanın nəqliyyat və enerji xəritəsinin yenidən formalaşmasında mühüm rol oynayır. Bunu qürur hissi ilə nəzərə çatdıran Prezident İlham Əliyev **“Türkiyə və Azərbaycan birgə səylərlə güclü siyasi iradə nümayiş etdirərək Avrasiyanın enerji və nəqliyyat xəritəsini yenidən cızır. Bunu biz edirik və bu yeni xəritələrin altında bizim imzamız var”,** - deyə vurğulayıb.

Regionda Azərbaycanla Türkiyənin birgə səyləri ilə Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum və Cənub Qaz Dəhlizi kimi şaxələndirilmiş boru kəmərləri şəbəkəsinin qurulması strateji mahiyyət daşıyır. Şaxələndirilmiş infrastruktur sayəsində Azərbaycan istehsalçı ölkə kimi müstəqil enerji siyasəti həyata keçirməyə və milli maraqlarını maksimum dərəcədə qorumağa nail olur. Azərbaycandan başlayan və Türkiyədən keçməklə Avropanın boru kəmərləri ilə birləşən şaxələndirilmiş enerji marşrutları, eyni zamanda, istehlakçılar üçün böyük əhəmiyyət daşıyır. Belə ki, istehlakçılar tələbatlarını müxtəlif mənbələrdən ödəyirlər. İstehsalçı ölkə kimi Azərbaycanın və tranzit ölkə kimi Türkiyənin prinsipial mövqeyi belədir ki, enerji amili heç bir halda digər ölkələrə qarşı təzyiq vasitəsinə çevrilməməlidir. Halbuki Avropa ölkələri bir neçə il bundan əvvəl soyuq qış aylarında təchizatçı dövlətlərin belə təzyiqləri ilə üzləşmişdi. Azərbaycan və Türkiyə enerji istehsalı və tranziti siyasətində üzərlərinə götürdükləri öhdəliklərə yüksək səviyyədə əməl edirlər.

Azərbaycanla Türkiyənin birgə iştirakı ilə ərsəyə gələn Bakı-Tbilisi-Qars dəmir yolu Avropa ilə Asiyanı birləşdirən ən qısa yoldur. Azərbaycan və Türkiyə yeni nəqliyyat arteriyası vasitəsi ilə uzaq Çindən Avropa ölkələrinə qədər müxtəlif dövlətlərdən yükləri qəbul etmək və onlara yük göndərmək imkanı əldə edib. Eyni zamanda, yeni dəmiryol bağlantısı ikitərəfli və çoxtərəfli platformalarda sıx əməkdaşlıq edən Azərbaycan, Gürcüstan və Türkiyə arasında iqtisadi-nəqliyyat əlaqələrinin daha da genişlənməsinə müsbət təsir göstərir. Azərbaycanın Şərq-Qərb və Şimal-Cənub dəhlizlərinin kəsişməsində yerləşdiyini nəzərə alsaq, deyə bilərik ki, Bakı-Tbilisi-Qars dəmir yolunun önəmi yalnız 3 ölkənin maraqlarını təmin etməklə məhdudlaşmır və daha geniş coğrafiyada yerləşən ölkələr üçün də böyük əməkdaşlıq imkanları açır.

Qeyd edək ki, fəaliyyətdə olduğu qısa müddətdə Bakı-Tbilisi-Qars dəmir yoluna böyük maraq yaranıb. Ayrı-ayrı ölkələr və şirkətlər bu yolun üstünlüklərindən bəhrələnməyə çalışırlar. Bunu yükdaşımaların həcminin artmasından da görmək mümkündür. Ötən il bu marşrutla 191, 2018-ci ilin 6 ayı ərzində isə 1400-ə yaxın konteyner daşınıb. Bütövlükdə, cari ilin sonunadək BTC vasitəsilə 4 minə yaxın konteynerin daşınması planlaşdırılır. Mütəxəssislərin qənaətinə görə, qarşıdakı illərdə bu marşrutla beynəlxalq yükdaşımaların həcmində dəfələrlə artım müşahidə ediləcək.

**Mübariz ABDULLAYEV**

# Nazirlər Kabinetinin rəsmi internet saytı rus dilində də fəaliyyətə başlayıb




Son vaxtlar ölkədə tətbiq olunan Elektron hökumət konsepsiyasının tələblərinə uyğun olaraq, Nazirlər Kabineti Aparatının rəsmi internet saytında (www.cabmin.gov.az) yeni struktur dəyişiklikləri aparılıb. Sayt daha da təkmilləşdirilərək, yeni funksional bölmələr əlavə edilməklə zənginləşdirilib və onun ən son internet texnologiyaları əsasında mükəmməl dizaynı hazırlanıb.

Nazirlər Kabinetinin mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, bu günlərdə saytda daha bir yenilik olub. Belə ki, saytın rus dilində versiyası da fəaliyyətə başlayıb. Bununla da Nazirlər Kabinetinin saytı dövlət qurumları arasında xarici dillərdə də bölməsi olan qurumların siyahısına əlavə olunub. Müstəqil Dövlətlər Birliyi (MDB) məkanında hökumətlərin rusdilli informasiya resursunun olması xüsusi əhəmiyyət daşıyır. İndiyədək MDB məkanında yalnız Azərbaycan Respublikası Nazirlər Kabinetinin rus dilində internet saytı mövcud deyildi.

Hazırda saytda müntəzəm olaraq Azərbaycan Respublikasının Baş naziri Novruz Məmmədovun iştirakı ilə keçirilən qəbullar və görüşlər, rəsmi tədbirlər, imzalanmış qərarlar, Nazirlər Kabinetinin iclasları haqqında operativ məlumatlar, tədbirlərdən fotoşəkillər və digər informasiyalar yerləşdirilir.

Həmçinin bütün bunlar barədə indi "Twitter" sosial şəbəkəsindən də operativ məlumat əldə etmək mümkündür. Hazırda Nazirlər Kabinetinin "Twitter" səhifəsindən (@AzerbaijanNK) 3 dildə - Azərbaycan, rus və ingilis dillərində paylaşımlar edilir.

# "Qlobal miqrasiya böhranı: Beynəlxalq münasibətlər və Qərb siyasəti yeni tarixi dönüş ərəfəsində" kitabı çapdan çıxıb




Azərbaycan Respublikasının Baş naziri Novruz Məmmədovun ideya müəllifliyi və baş redaktorluğu ilə "Qlobal miqrasiya böhranı: Beynəlxalq münasibətlər və Qərb siyasəti yeni tarixi dönüş ərəfəsində" kitabı çapdan çıxıb.

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti yanında Strateyi Araşdırmalar Mərkəzinin əməkdaşlarının (fəlsəfə üzrə elmlər doktoru, professor Tahirə Allahyarova, aparıcı elmi işçi Şahmar Hacıyev, elmi işçilər Elnarə Qəribova, Ayaz Rzayev və Orxan Bağırov) müəllifliyi ilə nəşr edilən kitabda hazırda dünyada yaşanan və milyonlarla insan həyatına təsir edən humanitar faciə - miqrasiya böhranı və onun yaranma səbəbləri ilə bağlı məsələlərə yeni baxış bucağından nəzər salınır. Miqrasiya proseslərinin təhlilində siyasi səbəblər və böhranın geosiyasi əsasları diqqət mərkəzinə gətirilir, miqrasiya böhranının müasir beynəlxalq münasibətlər sisteminin böyük sınağı kimi çıxış etməsi vurğulanır.

Kitabda miqrasiya proseslərinin tarix qədər qədim olması, bundan fərqli olaraq miqrasiya siyasətinin bir Qərb fenomeni kimi yeni dövrdə, Qərb məkanında milli dövlətin yaranması ilə formalaşması, XVII-XIX əsrlərdə müstəmləkəçilik siyasətinin miqrasiya proseslərinin tənzimlənməsinə təsirinin, Qərbin miqrasiya siyasəti modelinin geosiyasi maraqlara xidmət edərək tarixi ənənəyə çevrilməsində müstəmləkəçi irsin yeri və rolunun elmi şəkildə əsaslandırılmasına cəhd edilir. Nəşrdə, eyni zamanda, XX əsrdə beynəlxalq miqrasiya və qaçqın hüququnun yaradılması, miqrasiyanın tənzimlənməsi üçün vaxtaşırı müxtəlif siyasi-hüquqi modellərin tətbiqinin həqiqi məqsədləri təhlil edilir.

Kitabda XXI yüzilliyin əvvəllərində başlayan miqrasiya böhranının Avropa İttifaqı dövlətləri arasında dərin fikir ayrılığı yaratması məsələsi və qitənin müstəmləkəçi keçmişə malik olan dövlətləri ilə Şərqi Avropa ölkələrinin baş verən proseslərdə heç bir məsuliyyət daşımadıqları ilə bağlı mövqeyi müqayisə edilir.

Miqrasiya mövzusuna həsr edilmiş nəşrdə Cənubi Qafqazdakı tarixi miqrasiya proseslərinin episentri kimi Azərbaycana nəzər salınır. Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin yaranma səbəbləri aspektində tarixən imperiyaların müstəmləkəçi köçürmə siyasəti və onun həlli yolunda maneə kimi qaçqınların hüquqlarının təmin edilməsində geosiyasi maraqların toqquşmasından irəli gələn "ikili standartlar"ın rolu təhlil edilir.

Kitabda belə nəticəyə gəlinir ki, miqrasiya böhranı beynəlxalq münasibətlərin ənənəvi oyun qaydalarına, Qərb dövlətlərinin indiyə qədər yürütdüyü daxili və xarici siyasətlərinə dərin təsirini göstərən "geosiyasi cəbhə xətti" kimi çıxış edir.

Miqrasiya böhranı Qərbin siyasi-hüquqi, iqtisadi, ideoloyi, sosial-mədəni siyasətinin bütün səviyyələrdə müşahidə edilən böhranına, beynəlxalq ədalətin, liberal insan hüquqları və multikulturalizm dəyərlərinin iflası prosesinə çevrilməkdədir. Dünya birliyi miqrasiya böhranının həllinə yalnız beynəlxalq ədalət və hüquq prinsiplərinə əməl etməklə nail ola bilər. Qeyd edilənlər də öz növbəsində, miqrasiya probleminin siyasi aspektlərinin səbəblərinin tədqiq olunmasını zəruri edir.

Kitab miqrasiya problemləri ilə maraqlanan ekspertlər, alimlər, tələbələr, eləcə də geniş oxucu auditoriyası üçün nəzərdə tutulub.

# Xocalı soyqırımı haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması ilə bağlı məqsədyönlü tədbirlər səmərəli nəticələr verir

## *Bu istiqamətdə görülən ardıcıl və sistemli işlərin nəticəsi kimi, soyqırımını tanıyan ölkələrin sayı getdikcə artır, bu faciəyə obyektiv qiymət verilir*



Azərbaycanda dövlət siyasətinin mühüm istiqamətlərindən birini ölkə həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılması təşkil edir. Eyni zamanda, Dağlıq Qarabağ və yeddi ətraf rayonun Ermənistanın işğalından azad edilməsi istiqamətində davam etdirilən fəaliyyətin mühüm tərkib hissəsi olaraq Azərbaycan həqiqətlərinin, o cümlədən xalqımıza qarşı törədilən vəhşiliklərin dünyaya çatdırılması məqsədilə ardıcıl və səmərəli iş aparılır. Bu baxımdan, XX əsrin ən dəhşətli faciələrindən biri olan Xocalı soyqırımının dünyada tanıdılması istiqamətində görülən tədbirlər böyük önəm daşıyır. Bu soyqırımı haqqında həqiqətlərin beynəlxalq ictimaiyyətə çatdırılması, sözügedən faciənin xalqımıza qarşı törədilmiş soyqırımı kimi tanınması üçün Azərbaycan dövləti məqsədyönlü fəaliyyət göstərir. Xocalı soyqırımı haqqında həqiqətlərin beynəlxalq ictimaiyyətə çatdırılmasında Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın təşəbbüsü ilə həyata keçirilən "Xocalıya ədalət!" beynəlxalq təbliğat və məlumatlandırma kampaniyası çərçivəsində görülən işlərin də mühüm rolu var. Belə ki, 2008-ci ildən bu vaxtadək həyata keçirilən "Xocalıya ədalət!" kampaniyası çərçivəsində görülən işlər öz nəticələrini verir. Beynəlxalq ictimaiyyət ermənilər tərəfindən Azərbaycan xalqının başına gətirilən bu soyqırımına obyektiv münasibətini ortaya qoyur. Beynəlxalq miqyasda Azərbaycan ərazilərinin işğaldan azad edilməsini tələb edən, Ermənistanı təcavüzkar dövlət kimi tanıyan çoxsaylı qətnamələr qəbul edilib, eyni zamanda, ermənilərin xalqımızın başına gətirdiyi faciələr kəskin qınaq obyektinə çevrilib. Təsadüfi deyil ki, Ermənistan silahlı qüvvələrinin 1992-ci il fevralın 25-dən 26-na keçən gecə törətdiyi, XX əsr bəşər tarixinin ən qanlı səhifələrindən biri olan Xocalı soyqırımını tanıyan ölkələrin sayı getdikcə artır. Xocalı soyqırımı indiyədək dünyanın 16 ölkəsi, Amerika Birləşmiş Ştatlarının 24 ştatı tərəfindən tanınıb və pislənilib. Bundan başqa, İslam Əməkdaşlıq Təşkilatı Xocalı soyqırımı ilə əlaqədar 13 sənəd qəbul edib. Bu və digər faktlar beynəlxalq ictimaiyyətin Azərbaycan həqiqətlərinə verdiyi qiymətin göstəricisi olmaqla yanaşı, ölkəmizin informasiya müharibəsi sahəsində mühüm nailiyyəti, eləcə də diaspor siyasətinin uğurudur. Beləliklə, uğurlu diplomatiyanın və diaspor siyasətinin sayəsində bu gün Azərbaycan həqiqətləri dünyada inamla təbliğ olunur, informasiya məkanında üstünlüyü ələ alan ölkəmiz işğalçı Ermənistanın və erməni lobbisinin əleyhimizə yönəltdiyi dezinformasiyaları və "qara piar" kampaniyasını iflasa uğradır.

Qeyd etmək lazımdır ki, Türkiyənin Kayseri şəhərində keçirilən Xocalı parkının və Xocalı soyqırımı qurbanlarının xatirəsinə ucaldılmış abidə kompleksinin açılışı da əlamətdar hadisədir və Azərbaycan həqiqətlərinin dünyaya çatdırılması baxımından mühüm əhəmiyyətə malikdir. Yeri gəlmişkən, Kayseri şəhərində açılışı olan Xocalı parkındakı Xocalı soyqırımı qurbanlarının xatirəsinə ucaldılmış abidənin önünə gül dəstəsi qoyan Rusiya Federasiyası Dövlət Dumasının deputatı Dmitri Savelyev qeyd edib ki, Xocalıda törədilənlər Azərbaycan xalqına qarşı soyqırımıdır. Bu şəhərin yerlə yeksan olunması, insanlara divan tutulması bəşəri cinayətdir. O xatırladıb ki, 26 il əvvəl Azərbaycanın Xocalı şəhərində dəhşətli faciə törədilib, dinc sakinlərə hücum edilib. Bu cinayət nəticəsində 613 günahsız insan qətlə yetirilib. Bu, soyqırımıdır. Bunu törədənlər isə indiyədək cəzalarını almayıblar. **"Biz hamılıqla çalışmalıyıq ki, Xocalı soyqırımı barədə həqiqətləri bütün dünyaya çatdıraq və bu faciəni törədənlər cəzalarını alsınlar. Türkiyədə təhsil alan xarici tələbələr təmsil etdikləri dövlətlərinin rəhbər şəxslərinə təsir göstərməli, Xocalı soyqırımı ilə bağlı ölkələrinin parlamentlərinə çağırış etməlidirlər. Belə bir vəhşiliyin cəzasız qalmaması üçün təbliğat işlərinə qoşulmalıdırlar",** - deyə rusiyalı deputat əlavə edib.

Əlbəttə, ölkəmizin strateji tərəfdaşı olan, eyni zamanda, ATƏT-in Minsk qrupunun həmsədrlərindən biri Rusiyanın Dövlət Dumasının üzvünün bu fikirləri səsləndirməsi təqdirəlayiq haldır. Ekspertlərin də vurğuladıqları kimi, bu addım digər ölkələrin, o cümlədən Rusiyanın parlamentariləri üçün də nümunə olmalıdır.

**Nurlan QƏLƏNDƏRLİ**

# YAP-ın Sədr müavini Əli Əhmədov Tacikistanın ölkəmizdəki səfiri ilə görüşüb



Azərbaycan Respublikası Baş nazirinin müavini, Yeni Azərbaycan Partiyasının (YAP) Sədr müavini - İcra katibi Əli Əhmədov oktyabrın 23-də Tacikistan Respublikasının Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Rustam Soliyev ilə partiyanın mənzil-qərargahında görüşüb.

Görüşdə qarşılıqlı maraq doğuran məsələlərlə bağlı ətraflı fikir mübadiləsi aparılıb. YAP Sədrinin müavini Əli Əhmədov Azərbaycan ilə Tacikistan arasındakı əməkdaşlığın mövcud durumundan bəhs edərək münasibətlərin inkişafı üçün geniş perspektivlərin olduğunu nəzərə çatdırıb.

# Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Asiya İnkişaf Bankının vitse-prezidenti ilə görüşüb



Oktyabrın 23-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Asiya İnkişaf Bankının vitse-prezidenti Vençay Janq ilə görüşüb.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, Ali Məclisin Sədri Azərbaycan Respublikası Hökuməti və Asiya İnkişaf Bankı arasında bağlanmış kredit sazişinə əsasən Naxçıvan şəhərində həyata keçirilmiş "Su Təchizatı və Kanalizasiya İnvestisiya Proqramı" layihəsinin uğurla başa çatması münasibətilə Vençay Janqı təbrik edib.

Ali Məclisin Sədri deyib ki, layihə çərçivəsində 350 kilometr içməli su və 332 kilometr kanalizasiya şəbəkəsi çəkilib, 135 min nəfər standartlara uyğun içməli su ilə təmin olunub. Həmçinin layihədən qənaət olunmuş vəsait hesabına 3 yaşayış məntəqəsində də içməli su və kanalizasiya şəbəkəsi qurulub. Ali Məclisin Sədri dövlət vəsaiti hesabına muxtar respublikanın digər rayon və şəhərlərində də içməli su və kanalizasiya sistemlərinin qurulduğunu diqqətə çatdırıb.

Azərbaycanın Naxçıvan Muxtar Respublikasının Asiya İnkişaf Bankı ilə əlaqələri bundan sonra da davam etdirməkdə maraqlı olduğunu bildirən Ali Məclisin Sədri qurulan səmərəli əməkdaşlığa görə Asiya İnkişaf Bankının vitse-prezidentinə təşəkkür edib.

Asiya İnkişaf Bankının vitse-prezidenti Vençay Janq səmimi qəbula görə minnətdarlıq edib və muxtar respublikaya səfərindən məmnunluğunu bildirib. Asiya İnkişaf Bankının ölkəmizdə 20 ilə yaxındır fəaliyyət göstərdiyini və müxtəlif layihələrin həyata keçirildiyini qeyd edən vitse-prezident Asiya İnkişaf Bankı ilə Azərbaycan arasında 2019-2023-cü illər üçün əməkdaşlıq strategiyasının hazırlandığını diqqətə çatdırıb.

Qonaq muxtar respublikaya səfərinin layihə çərçivəsində görülən işlərin və Asiya İnkişaf Bankı ilə Naxçıvan Muxtar Respublikası arasında gələcək əməkdaşlıq imkanlarının müzakirəsi üçün geniş imkanlar açdığını bildirib.

Sonda xatirə şəkli çəkdirilib.

# Azərbaycanın kənd təsərrüfatı naziri Parisdə Beynəlxalq Üzümçülük və Şərabçılıq Təşkilatının baş direktoru ilə görüşüb



Üzümçülük və şərabçılığın inkişafı əsas məqsədlərimizdən biridir. Azərbaycan Prezidenti İlham Əliyev bu sahəyə xüsusi önəm verir və respublikamızda üzümçülüyün inkişafına dair Dövlət proqramı qəbul olunub.

AZƏRTAC xəbər verir ki, bu fikri kənd təsərrüfatı naziri İnam Kərimov Parisdə Beynəlxalq Üzümçülük və Şərabçılıq Təşkilatının (OİV) baş direktoru Jan-Mari Oran ilə görüşdə səsləndirib.

İnam Kərimov qeyd edib ki, ölkəmizdə üzümçülük sektoru yeni inkişaf mərhələsinə daxil olub. Kənd təsərrüfatı sahəsində sosial-iqtisadi göstəricilər daha da artıb və bu istiqamətdə uğurlar qazanılıb. 2017-ci ildə kənd təsərrüfatının ÜDM-də payı 5,6 faiz olub və ümumi istehsal 4,2 faiz çoxalıb.

Nazir bildirib ki, ötən il ölkəmizdə 1 milyon dekalitr şərab istehsal olunub və onun 375 min dekalitri ixrac edilib. Məhsullar əsasən Rusiya və Çinə ixrac olunub.

İnam Kərimov ölkəmizin OİV ilə əməkdaşlığın möhkəmləndirilməsində maraqlı olduğunu söyləyib. Nazirliyin nümayəndələrinin və ekspertlərinin müntəzəm olaraq OİV-in baş assambleyasında, iclaslarında və seminarlarında iştirak etdiyini diqqətə çatdırıb. Nazir OİV ekspertləri ilə sıx əməkdaşlığın və kommunikasiyanın möhkəmləndirilməsi, üzümçülük və şərabçılığın inkişafı istiqamətində ekspertiza dəstəyi, bu sahədə təhsilin müxtəlif pillələri üzrə azərbaycanlı tələbələrin OİV tərəfindən təşkil olunan təcrübə kurslarında, eləcə də ekspertlərin qurumun tədbirlərində iştirakına dəstəyin verilməsi sahələrində əməkdaşlığın genişləndirilməsinin əhəmiyyətinə toxunub.

Eyni zamanda, İnam Kərimov OİV-nin növbəti konqresinin ölkəmizdə keçirilməsi və bu konqres çərçivəsində şərab festivalının təşkili ilə bağlı əldə olunmuş birgə razılıqdan danışıb və bu istiqamətdə fikir mübadiləsi aparılıb.

Nazir Azərbaycan və Beynəlxalq Üzümçülük və Şərabçılıq Təşkilatı (OİV) arasında əməkdaşlığın möhkəmləndirilməsinə və şərablarımızın dequstasiyası üçün tədbirin təşkilinə göstərdiyi səylərə görə OİV-nin baş direktoruna təşəkkürünü bildirib.

OİV-nin baş direktoru Jan-Mari Oran rəhbərlik etdiyi təşkilatla ölkəmiz arasındakı əməkdaşlıqdan məmnunluğunu bildirib. Azərbaycana ilk səfərindən söz açan baş direktor müstəqilliyimizin ilk illərində üzümçülüyün məhv edilməsindən, Azərbaycan Prezidentinin diqqəti sayəsində bu sahənin yenidən inkişafından xəbərdar olduğunu deyib. Jan-Mari Oran OİV-nin ölkəmizlə əməkdaşlığın genişləndirilməsində maraqlı olduğunu diqqətə çatdırıb.

# Məşhur robot Sofiya "ASAN xidmət" mərkəzində könüllü olub



Dünyanın tanınmış robotu Sofiya "ASAN xidmət" mərkəzində könüllü kimi fəaliyyət göstərib. O, mərkəzə müraciət edən vətəndaşlardan rəy sorğularının alınmasında iştirak edib.

AZƏRTAC xəbər verir ki, "ASAN xidmət" modeli ilə tanış olan Sofiya onun rahat, çox müasir və vətəndaşyönümlü olduğunu söyləyib.

Tədbir zamanı KİV nümayəndələrinə məlumat verən Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin İctimaiyyətlə əlaqələr şöbəsinin müdiri Elnur Niftəliyev bildirib ki, Sofiya robotu Azərbaycanda ilk dəfə oktyabrın 22-də İmişli rayonunda "ASAN Həyat" kompleksinin açılışı zamanı Prezident İlham Əliyevə təqdim olunub. Şöbə müdiri, həmçinin deyib: **"ASAN xidmət" 2015-ci il BMT-nin "Dövlət xidmətlərinin göstərilməsinin təkmilləşdirilməsi" kateqoriyasında 1-ci yerə layiq görülərək xüsusi mükafat və diplomla təltif edilib. Bundan başqa, ISESCO-nun 2019-2021-ci illər üzrə üçillik fəaliyyət planında üzv ölkələrdə sektoral idarəçilik mexanizminin inkişaf etdirilməsi məqsədilə dövlət idarəçiliyi sahəsində Azərbaycanın "ASAN xidmət" modelindən faydalanmaq tövsiyə olunub. Bu faktların özü bir daha təsdiqləyir ki, Azərbaycan brendi olan "ASAN xidmət"ə dünyada böyük maraq var. Bütün dünyada tanınmış robot mərkəzimizdə könüllü kimi fəaliyyət göstərib. Sofiya iki gün "ASAN xidmət"in qonağı olacaq. Gələcəkdə Sofiyanın iştirak edəcəyi görüşlərdə və beynəlxalq tədbirlərdə "ASAN xidmət" modelini təbliğ etməsi ilə bağlı danışıqlar aparılır".**

Qeyd edək ki, Sofiya robotu dünyada ilk süni intellekt humanoid robotudur. Bu robot 2015-ci ildə Hanson Robotiks şirkəti tərəfindən hazırlanıb və süni intellekt əsasında insanla ünsiyyət saxlaya və fikir mübadiləsi apara bilər. Robotun əsas fərqləndirici xüsusiyyətlərindən biri də insana məxsus 60-dan çox emosiyanı əks etdirə bilməsidir. Sofiya bu günə qədər dünyada bir çox məşhur simalar, prezidentlər, məşhur aktyorlar və beynəlxalq təşkilatların rəhbər şəxsləri ilə görüşüb, tanınmış televiziya kanallarında xəbər proqramları və teledebatlarda iştirak edib.

# Bakıda Azərbaycan və Rusiya Daxili İşlər nazirliklərinin xüsusiləşdirilmiş İşçi Qrupunun növbəti iclası keçirilib



Azərbaycan Respublikasının daxili işlər naziri, general-polkovnik Ramil Usubovun dəvəti ilə Rusiya Federasiyasının daxili işlər naziri, polis generalı Vladimir Kolokoltsevin başçılıq etdiyi nümayəndə heyəti ölkəmizə işgüzar səfərə gəlib.

AZƏRTAC xəbər verir ki, səfərin əsas məqsədi hər iki ölkənin sərhədyanı ərazilərində daxili işlər orqanlarının birgə fəaliyyətinin razılaşdırılması və əlaqələndirilməsi üzrə Azərbaycan Respublikası və Rusiya Federasiyası Daxili İşlər nazirliklərinin xüsusiləşdirilmiş İşçi Qrupunun növbəti iclasında iştirak etmək olub.

Oktyabrın 23-də xüsusiləşdirilmiş İşçi Qrupun növbəti iclası işə başlayıb.

Nazir Ramil Usubov tədbirdə çıxış edərək Rusiya Federasiyasının daxili işlər naziri Vladimir Kolokoltsevi və başçılıq etdiyi nümayəndə heyətini salamlayıb, toplantının işinə uğurlar arzulayıb. Gündəlikdəki məsələlər üzrə çıxış edən nazir R.Usubov bu gün iki ölkə arasındakı əlaqələrin bütün sahələrdə inkişaf edərək yeni mərhələyə qədəm qoyduğunu, prezidentlər İlham Əliyevin və Vladimir Putinin siyasi iradələrinə uyğun olaraq, ölkələrimiz arasında strateji tərəfdaşlığın, cəmiyyət həyatının ən müxtəlif sahələri üzrə işbirliyinin və inteqrasiyanın daha da dərinləşdiyini, ikitərəfli münasibətlərdə hüquq-mühafizə fəaliyyətinin də mühüm əhəmiyyət kəsb etdiyini bildirib.

Nazirliklər arasında əməkdaşlığın əsas prioritetlərindən birinin sərhədyanı bölgələrdə ictimai təhlükəsizliyin, dayanıqlı sabitliyin etibarlı təmini olduğunu nəzərə çatdıran nazir qarşıya qoyulan bütün vəzifələrin və verilən tapşırıqların birgə səylərlə uğurla yerinə yetirildiyini, bu işdə İşçi Qrupun da önəmli rola malik olduğunu məmnunluqla xatırladıb.

O, Rusiya Federasiyası Dağıstan Respublikasının Daxili İşlər Nazirliyi ilə də səmərəli əməkdaşlığın mövcudluğunu, tərəflər arasında daimi informasiya mübadiləsi aparıldığını, ən müxtəlif səviyyələrdə görüşlərin keçirildiyini, qarşılıqlı faydalı işbirliyinin müsbət nəticələrinin olduğunu, müxtəlif istiqamətlərdə, o cümlədən, cinayətlərin açılmasını, axtarışda olanların tutulmasını, onların ekstradisiyasını, sərhədyanı regionlarda




birgə razılaşdırılmış tədbirlərin təşkil edildiyini bildirib.

İclasda İşçi Qrupun yarandığı vaxtdan indiyədək birgə əməliyyat-profilaktik tədbirlərin təşkilində və həyata keçirilməsində xeyli müsbət təcrübə qazandığı, bununla da ümumi işə töhfə verdiyi nəzərə çatdırılıb. Qeyd olunub ki, "Sərhəd-Sipər" kompleks əməliyyat-profilaktik tədbirlərin keçirildiyi təkcə son beş il ərzində Azərbaycan tərəfindən 535 odlu silah, 43 min ədəd hərbi sursat aşkarlanaraq götürülüb, axtarışda olan 202, o cümlədən Rusiyanın hüquq-mühafizə orqanları tərəfindən axtarılan 85 nəfər tutulub.

Nazir beynəlxalq terrorçuluq və transmilli mütəşəkkil cinayətkarlığın yeni çağırış və təhdidlərinin artaraq qlobal xarakter aldığını, ekstremizmi, aqressiv separatizmi təbliğ edən radikal elementlərin vaxtında müəyyənləşdirilməsi və qanunsuz fəaliyyətlərinin qarşısının alınması istiqamətində hər iki tərəfdən fəal əməliyyat-profilaktiki tədbirlərin həyata keçirilməsinin vacibliyini, bu istiqamətdə müsbət nəticələrin əldə edildiyini diqqətə çatdırıb. Ramil Usubov cinayətkarlıqla mübarizə və ictimai asayişin qorunması, axtarışda olanların tutularaq ekstradisiya olunması, kadr hazırlığı və qarşılıqlı maraq doğuran informasiya mübadiləsi sahələrində köməyə, əlaqələrin inkişafına göstərdiyi diqqətə, əməkdaşlığa böyük şəxsi töhfəsinə görə Vladimir Kolokoltsevə təşəkkürünü bildirib.

Rusiya Federasiyasının daxili işlər naziri, polis generalı Vladimir Kolokoltsev qonaqpərvərliyə və tədbirin yüksək səviyyədə təşkilinə görə azərbaycanlı həmkarına minnətdarlığını ifadə edib. İki ölkənin daxili işlər orqanları arasında əməkdaşlığın genişləndirilməsinə Rusiya tərəfinin hər zaman böyük önəm verdiyini, xüsusiləşdirilmiş İşçi Qrupun növbəti iclasının Bakıda keçirilməsinin bunun əyani təzahürü olduğunu qeyd edən rusiyalı nazir hazırkı səfərin də beynəlxalq terrorçuluq və transmilli mütəşəkkil cinayətkarlıqla mübarizə sahəsində qarşılıqlı faydalı əməkdaşlıq üçün yeni imkanlar açacağına, bunun son vaxtlar iki nazirlik arasındakı ənənəvi sıx peşəkar əlaqələrin məqsədyönlü şəkildə yeni məzmunla, müasir forma və metodlarla zənginləşməsinə xidmət edəcəyinə əminliyini vurğulayıb.

Vladimir Kolokoltsev bu səfərin ikitərəfli münasibətlərin inkişafında əhəmiyyətli hadisə olacağına, eyni zamanda, əməliyyat-xidməti fəaliyyətin bütün sahələrində əməkdaşlığı dərinləşdirməyə əlavə impuls verəcəyinə inandığını bildirib.

İclasda sərhədyanı ərazilərdə ictimai təhlükəsizliyin təmini və birgə razılaşdırılmış səylərin səmərəliliyinin artırılması istiqamətində Azərbaycan və Rusiya Daxili İşlər nazirliklərinin əməkdaşlığının vəziyyəti, xüsusiləşdirilmiş İşçi Qrupun fəaliyyəti, 2019-2020-ci illərdə həmsərhəd ərazilərdə onun təşkilati-praktik tədbirlər planı, bu il keçirilmiş "Sərhəd-Sipər" kompleks əməliyyat-profilaktik tədbirlərinin yekunları müzakirə edilib.

İclasda xüsusiləşdirilmiş İşçi Qrupun hər iki ölkədən olan həmsədrlərinin - Rusiya Federasiyası Dağıstan Respublikasının daxili işlər naziri, polis general-leytenantı Abduraşid Maqomedovun və Azərbaycan Daxili İşlər Nazirliyi Baş Cinayət Axtarış İdarəsinin rəisi, polis general-mayoru Arzu Daşdəmirovun məruzələri də dinlənilib.

Tədbir nazirlərin iştirakı ilə yekun sənədlərin, o cümlədən sərhədyanı ərazilərdə birgə fəaliyyətin razılaşdırılması və əlaqələndirilməsi üzrə Azərbaycan Respublikası və Rusiya Federasiyası Daxili İşlər nazirliklərinin xüsusiləşdirilmiş İşçi Qrupunun Bakı iclasının Protokolunun imzalanması ilə başa çatıb.

# Bakıda "Müasir Azərbaycandan tarixi Şirvanşahlar dövlətinə səyahət" mövzusunda beynəlxalq elmi konfrans keçirilib




Oktyabrın 23-də Bakı Konqres Mərkəzində "Müasir Azərbaycandan tarixi Şirvanşahlar dövlətinə səyahət" mövzusunda beynəlxalq elmi konfrans işə başlayıb.

AZƏRTAC xəbər verir ki, "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsi və Azərbaycan Milli Elmlər Akademiyasının birgə təşkilatçılığı ilə reallaşan konfransda 30 ölkədən 150-dək xarici qonaq iştirak edib.

Tədbirdə çıxış edən Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) prezidenti, akademik Akif Əlizadə konfransın əhəmiyyətindən danışıb.

Akademik bildirib ki, XX əsrin sonlarında yenidən müstəqilliyinə qovuşan Azərbaycanda tariximizin öyrənilməsi, zəngin dövlətçilik ənənələrimizin tədqiqi kimi məsələlər prioritet istiqamətlərdən






sayılır.

**"Bu coğrafiyada Ağqoyunlu, Qaraqoyunlu, Səfəvilər və Şirvanşahlar kimi dünyada tanınan dövlətçilik ənənələrimiz mövcud olub. Şirvanşahlar dövləti bütün atributlara sahib dövlətçilik ənənələri ilə tanınıb. Hər zaman ərazi bütövlüyünü qoruyub saxlayan bu dövlət dahi şair və alimlərin yaşadığı bir mərkəz rolunu oynayıb. Şirvanşahlar dövründə Bakı, Şamaxı və Dərbənddə çox böyük mədəniyyət nümunələri yaradılıb. Prezident İlham Əliyev Şirvanşahlar Sarayının yenidən qurulmasına xüsusi göstəriş verib. Bu gün Prezident İlham Əliyev və Birinci vitse-prezident Mehriban Əliyeva elmə, elm adamlarına böyük qayğı və diqqət göstərirlər. Maddi mədəniyyətimizin çox qiymətli nümunəsi olan İçərişəhər təkcə Azərbaycan üçün deyil, həm də bəşəri dəyər kimi yüksək qiymətləndirilən tarixi abidədir. Bunu UNESCO-nun Dünya Maddi İrs Siyahısına İçərişəhərin Qız qalası və Şirvanşahlar Saray Kompleksi ilə birgə salınması da təsdiq edir. Həm Şirvanşahlar Saray Kompleksi, həm də Qız qalası Azərbaycan qanunvericiliyi, eləcə də UNESCO tərəfindən dünya əhəmiyyətli abidələr kimi tanınır və qorunur. Bütün bunlara Mehriban Əliyevanın dəstəyi sayəsində nail olmuşuq. Son illər dünya dövlətlərinin tanınmış elm adamlarının xalqımızın zəngin tarixinin tədqiqinə marağı artıb. Bu olduqca sevindirici haldır"**, - deyə akademik vurğulayıb.

AMEA-nın prezidenti qeyd edib ki, konfrans dərin tarixi köklərə, zəngin mədəniyyətə sahib olan və müasir Azərbaycan ərazisində dövlətçiliyin əsasını qoymuş minillik tarixə malik Şirvanşahlar dövlətinin simasında dünya ictimaiyyətinin diqqətini ölkəmizin tarixinin tədqiqinə cəlb etmək baxımından xüsusi əhəmiyyət daşıyır.

Mədəniyyət naziri Əbülfəs Qarayev konfransın keçirilməsini dövlətçiliyimizin dərk edilməsi baxımından çox böyük addım kimi dəyərləndirib: **"Şirvanşahlar Asiya ilə Avropanın kəsişdiyi bir coğrafiyada yaranıb və inkişaf edən dövlətlər sırasında yer alıb. Dövlətimiz tərəfindən həmişə tarixi və mədəni abidələrimizə həssaslıqla yanaşılır. Şirvanşahlar Saray Kompleksi Birinci vitse-prezident Mehriban Əliyevanın dəstəyi sayəsində UNESCO-nun Ümumdünya İrsi Siyahısına daxil olub".**

Şirvanşahların Azərbaycanın dövlətçilik tarixində mühüm yerlərdən birini tutduğunu söylən nazir deyib ki, bu dövlət xalqımızın dövlətçilik ənənələrinin formalaşmasında əvəzsiz rol oynayıb: **"Şirvanşahların himayəsi altında Azərbaycan mədəniyyəti zənginləşib, inkişaf etdirilib. Azərbaycan ədəbiyyatının Nizami Gəncəvi, Xaqani Şirvani, Nəimi, Nəsimi, Seyid Yəhya Bakuvi kimi klassikləri bu dövrdə yaşayıb yaratmışlar. Şirvanşahlardan dövrümüzə Şirvanşahlar sarayı, Bibiheybət məscidi, Bakı qalası, Pirsaatçay xanəgahı kimi onlarca dəyərli tarixi-memarlıq abidəsi miras qalıb. Şirvanşahlar dövründə cərəyan edən mədəni, siyasi və iqtisadi proseslərin Yaxın Şərqə də böyük təsir imkanları olub".**

Belə beynəlxalq əhəmiyyətli tədbirlərin ölkəmizdə keçirilməsinin vacibliyini qeyd edən Ə.Qarayev konfransın işinə uğurlar arzulayıb.

Şirvanşahlar dövlətinin tarixi haqqında iştirakçılara məlumat verən "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruq İdarəsinin (DTMQ) rəisi Əsgər Ələkbərov deyib ki, o dövrdə inşa edilmiş memarlıq abidələri, yazılmış əsərlər dünya irsinin mükəmməl nümunələri sırasında xüsusi yer tutur. Bildirib ki, Şirvan şahlarının iqamətgahının, minillik Şirvan tarixinin ən gözoxşayan tikililərinin İçərişəhər ərazisində yerləşməsi bu konfransın keçirilməsi ilə bağlı ideyanın yaranmasının ən başlıca səbəblərindən olub: **"Biz Milli Elmlər Akademiyası ilə birlikdə Şirvanşahlar tarixinə həsr olunmuş konfransın keçirilməsi təşəbbüsü ilə çıxış etdik. Prezident İlham Əliyev və Birinci vitse-prezident Mehriban Əliyeva bu təşəbbüsü dəstəkləyərək konfransın ən yüksək səviyyədə keçirilməsinə dair müvafiq tapşırıqları verdilər. Düşünürəm ki, bu, dövlət rəhbərliyinin xalqımızın tarixi irsinə verdiyi yüksək dəyəri göstərir, gənc nəsillərə vətənpərvərlik hissini aşılayır, onlarda tariximizə bağlılıq və ona qarşı məhəbbət hissi oyadır".**

**"Şirvanşahlar dövləti VI-XVI əsrlər kimi ağır və çətinliklərlə dolu tarixi bir dövrə sinə gərərək çiçəklənə bilib. Azərbaycan və eləcə də dünya ədəbiyyatının böyük simalarından olan Xaqani Şirvani və İmadəddin Nəsiminin o dövrdə yazıb yaratmaları Şirvan şahlarının poeziya, elm və yaradıcılığa göstərdikləri qayğının bariz nümunələrindən biridir. Məlumdur ki, bu yaxınlarda Azərbaycanda Heydər Əliyev Fondu tərəfindən Fondun vitse-prezidenti Leyla xanım Əliyevanın şəxsi təşəbbüsü ilə İmadəddin Nəsiminin yaradıcılığına həsr olunmuş "Şeir, incəsənət və mənəviyyat" şüarı altında birinci Nəsimi Festivalı müvəffəqiyyətlə keçirildi. Nəsimi adı bu gün hamımız üçün mənəviyyat və ziya simvoludur".**

Bildirilib ki, konfransın əsas vəzifəsi yüksək beynəlxalq səviyyədə Şirvanşahlar dövlətinin tarixinə dair yeni araşdırmaların aparılması, gənc tədqiqatçıların Şirvan və ümumilikdə Azərbaycan tarixinin öyrənilməsinə cəlb olunması, milli mədəni irsin təbliği istiqamətində fəaliyyəti genişləndirməkdir.

Konfrans çərçivəsində tanınmış beynəlxalq elm adamlarının İslam aləmində ən uzunmüddətli hakimiyyətə malik Şirvanşahlar dövlətinin memarlığı, arxeologiya, etnoqrafiya, ədəbiyyat, epiqrafiya və fəlsəfəsi mövzularında məruzələri dinlənilib.

Sonra qonaqlar "Şirvan şahları" sənədli filminə baxıblar.

Konfrans panel iclaslarla davam edib.

Konfrans çərçivəsində "Şirvanşahlar Saray Kompleksi" Dövlət Tarix-Memarlıq Muzeyi ilə Moldova İncəsənət Muzeyi və Özbəkistan Dövlət Teymurilər Tarixi Muzeyi arasında əməkdaşlıq barədə memorandumu imzalanıb.

İki gün davam edəcək konfransın mədəni proqramı çərçivəsində iştirakçıların ölkəmizin müxtəlif regionlarına səfəri nəzərdə tutulur.

# Pakistan Prezidenti Azərbaycanın Dövlət Sərhəd Xidmətinin rəisini qəbul edib



Dövlət Sərhəd Xidmətinin (DSX) rəisi, general-polkovnik Elçin Quliyevin rəhbərlik etdiyi nümayəndə heyəti Pakistan İslam Respublikasının Silahlı Qüvvələrinin Birləşmiş Qərargah Rəisləri Komitəsinin sədri, general Zübair Mahmud Hayatın dəvəti ilə oktyabrın 22-dən bu ölkədə səfərdədir.

AZƏRTAC xəbər verir ki, oktyabrın 24-dək davam edəcək səfər çərçivəsində general-polkovnik Elçin Quliyev Pakistan İslam Respublikasının Prezidenti Arif Alvi tərəfindən qəbul edilib.

Söhbət zamanı Azərbaycan ilə Pakistan arasında müxtəlif sahələrdə sıx əməkdaşlıq əlaqələrinin mövcudluğu, Pakistanın 1991-ci ildə Azərbaycan Respublikasının müstəqilliyini, eləcə də Xocalı soyqırımını tanıyan ilk ölkələrdən biri olduğu vurğulanıb. Həmçinin 1992-ci ildə iki ölkə arasında diplomatik əlaqələrin qurulduğu, ölkə rəhbərləri və hökumət nümayəndələri səviyyəsində qarşılıqlı səfərlərin həyata keçirildiyi, Pakistanın Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli məsələsində daim Azərbaycanın mövqeyini dəstəklədiyi qeyd edilib.

General-polkovnik Elçin Quliyev Azərbaycanın dövlət sərhədlərində mövcud əməliyyat şəraiti haqqında Pakistan Prezidentinə məlumat verib. Ermənistanın təcavüzü nəticəsində Azərbaycan torpaqlarının 20 faizinin işğal olunduğu, Azərbaycan-İran sərhədinin 132, Azərbaycan-Ermənistan sərhədinin isə 733 kilometrlik hissəsinin nəzarətsiz qaldığı qeyd edilib. Əlavə olaraq, Dövlət Sərhəd Xidmətinin fəaliyyəti, həyata keçirilən islahatlar, maddi-texniki bazanın inkişafı üzrə görülmüş işlər və əldə olunan nailiyyətlər barədə də ətraflı məlumat verilib.

General-polkovnik Elçin Quliyevin Pakistan İslam Respublikasının Birləşmiş Qərargah Rəisləri Komitəsinin sədri, general Zübair Mahmud Hayat ilə görüşündə ölkələrimiz arasında dostluq əlaqələrinin yüksək səviyyədə olduğu qeyd edilib. Bundan başqa, sərhəd təhlükəsizliyi sahəsində əlaqələrin qurulması və inkişaf etdirilməsi, təcrübə mübadiləsinin həyata keçirilməsi, tərəflərin müvafiq heyətinin xüsusi təlim və kurslarda iştirakı və s. məsələlər müzakirə olunub.

Səfər çərçivəsində Azərbaycan nümayəndə heyəti Pakistan İslam Respublikasının Quru Qoşunlarının Komandanı, general Qamar Cavad Bacva, Hərbi Dəniz Qüvvələrinin Komandanı admiral Zəfər Mahmud Abbasi və Pakistan İslam Respublikasının 11-ci ordu korpusunun komandiri, general-leytenant Nazir Əhməd Batla da görüşlər keçirib.

Azərbaycan nümayəndə heyətinin Pakistana səfəri davam edir.

# Azərbaycan ilə Rusiya arasında müdafiə sənayesi sahəsində əməkdaşlığın genişləndirilməsi imkanları müzakirə olunub

Azərbaycan Respublikasının müdafiə sənayesi nazirinin müavini Yəhya Musayevin rəhbərlik etdiyi nümayəndə heyəti Rusiya Federasiyası Sənaye və Ticarət Nazirliyinin dəvəti ilə Moskvada səfərdədir.

Müdafiə Sənayesi Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, səfər çərçivəsində Yəhya Musayevin Rusiyanın sənaye və ticarət nazirinin müavini Oleq Ryazantsev ilə görüşü olub.



Görüşdə iki ölkənin müdafiə sənayesi üzrə fəaliyyət göstərən qurumları arasında mövcud əməkdaşlıq əlaqələrindən məmnunluq ifadə olunub. Eyni zamanda, əməkdaşlığın genişləndirilməsinə dair hər iki tərəfin niyyəti ifadə olunub və geniş fikir mübadiləsi aparılaraq prioritet istiqamətlər üzrə razılıq əldə edilib.

Yəhya Musayev dəvətə və səfərin yüksək səviyyədə təşkilinə görə təşəkkürünü bildirib.

# Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Göyçayda vətəndaşları qəbul edib



Azərbaycan Prezidenti İlham Əliyevin tapşırıq və tövsiyələrinə əsasən mərkəzi icra hakimiyyəti orqanlarının rəhbərləri bölgələrdə vətəndaşları qəbul edir, onların müraciət və təkliflərinin, ərizə və şikayətlərinin həlli üçün operativ tədbirlər görürlər.

AZƏRTAC-ın bölgə müxbiri xəbər verir ki, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı oktyabrın 23-də Göyçayda Ucar, Zərdab, Kürdəmir və Göyçay rayonlarının sakinlərini qəbul edib.

Qəbuldan öncə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı və Göyçay Rayon İcra Hakimiyyətinin başçısı Mehdi Səlimzadə Ümummilli lider Heydər Əliyevin rayonda ucaldılan abidəsini ziyarət edib, önünə gül dəstələri qoyublar.

Göyçay rayon Heydər Əliyev Mərkəzində baş tutan qəbulda vətəndaşlar əsasən məscidlərin təmiri, dini icmaların fəaliyyəti, onların dövlət qeydiyyatına alınması, dini maarifləndirmə ilə əlaqədar icmalara vəsaitlərin ayrılması, dini icmaların zəruri dini ədəbiyyatlarla təmin edilməsi və digər məsələlərlə bağlı müraciət ediblər.

Müraciətlərin bir qismi yerindəcə öz həllini tapıb. Araşdırılmasına ehtiyac olan məsələlərin qanunvericiliyə uyğun, operativ həlli üçün müvafiq tapşırıqlar verilib.

# Milli-mənəvi dəyərlərimizin qorunması dövlət-din siyasətinin tərkib hissəsidir




Oktyabrın 23-də Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi (DQİDK) və Göyçay Rayon İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə "Azərbaycanın dövlət-din modeli: əsas istiqamətlər" mövzusunda regional konfrans keçirilib.

AZƏRTAC-ın bölgə müxbiri xəbər verir ki, regional konfransda Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi və Göyçay rayon İcra Hakimiyyətinin rəhbər şəxsləri, Qafqaz Müsəlmanları İdarəsinin nümayəndələri, yerli hüquq-mühafizə orqanlarının rəhbərləri, ictimaiyyət fəalları, həmçinin dini icma sədrləri, din xadimləri, ilahiyyatçılar iştirak ediblər.

Konfransı açan rayon İcra Hakimiyyətinin başçısı Mehdi Səlimzadə bildirib ki, Azərbaycanda Ulu öndər Heydər Əliyevin siyasəti nəticəsində xalqın keçmişinə, milli adət-ənənələrinə, dininə dövlət səviyyəsində qayğı göstərilməyə başlanılıb, bu dəyişikliyin fonunda ölkədə etiqad, inanc azadlığı bərqərar olub. M.Səlimzadə Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdəki dini dözümlülük və tolerantlığın dinə münasibətdə dövlət siyasəti kimi səciyyələndirildiyini vurğulayıb.

Mehdi Səlimzadə Azərbaycanın dinlərarası dialoq və əməkdaşlıq sahəsindəki təcrübəsinin bütün dünyada yüksək qiymətləndirildiyini söyləyib. O, eyni zamanda, ölkəmizdəki dövlət-din münasibətləri çərçivəsində bütün dini konfessiyaların qanun qarşısında eyni statusa malik olduğunu qeyd edib.

Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı deyib ki, Ümummilli lider Heydər Əliyevin əsasını qoyduğu dövlət-din münasibətləri ölkədə dini fəaliyyət sahəsində sabitliyə nail olunmasına, konfessiyalar arasında dözümlülük mühitinin qorunub saxlanılmasına və möhkəmləndirilməsinə geniş imkanlar açıb. Vurğulanıb ki, bu model Prezident İlham Əliyev tərəfindən zamanın tələblərinə uyğun olaraq daha da gücləndirilib və dünyada artıq nümunə kimi qəbul olunur. Dövlətimizin başçısının bu istiqamətdə atdığı addımlar davamlı xarakter daşıyır, eləcə də multikultural münasibətlərin davamlılığı, onun bugünkü inkişafı bilavasitə dövlət dəstəyindən qaynaqlanır.

Dövlətin din siyasətinin tərkib hissəsində milli-mənəvi dəyərlərimizin qorunmasının önəmli yerlərdən birini tutduğunu deyən DQİDK sədri bu dəyərlərin qorunmasında dini maarifləndirməyə xüsusi diqqət yetirildiyini qeyd edib. M.Qurbanlı diqqətə çatdırıb ki, keçirilən konfransların, görüşlərin əsas məqsədi dini maarifləndirmə yolu ilə milli-mənəvi dəyərlərimizin qorunması istiqamətində aparılan işlərə töhfə vermək və yad dini ideologiyaların yayılmasına qarşı mübarizə aparmaqdır. O, cəmiyyətdə, xüsusilə gənclər arasında xurafatın, eləcə də zərərli vərdişlərin, zərərli dini cərəyanların təbliğ etdiyi ideyaların qarşısının alınması istiqamətində ardıcıl tədbirlər həyata keçirildiyini bildirib. Din pərdəsi altında gizlənən radikal qrupların məqsədinin stabilliyi pozmaq, xaos yaratmaq yolu ilə öz siyasi ambisiyalarını həyata keçirmək olduğunu qeyd edən Komitə sədri Azərbaycanın müvafiq dövlət qurumları tərəfindən bu cür halların qarşısının qətiyyətlə alındığını diqqətə çatdırıb.



Sonda çıxış edən Qafqaz Müsəlmanları İdarəsinin bölgə qazısı Əli Məmmədov dövlətin dinə və din xadimlərinə qayğısından bəhs edib. Ə.Məmmədov diqqət və qayğıya görə bölgə dindarları adından Prezident İlham Əliyevə minnətdarlığını ifadə edərək, dindarların bütün məsələlərdə daim dövlətin yanında olduğunu söyləyib.

Konfrans öz işini oktyabrın 24-də Göyçay şəhər 1 saylı orta məktəbdə məktəb direktorları və təlim-tərbiyə işləri üzrə direktor müavinlərinin, həyat bilgisi fənnini tədris edən müəllimlərin və məktəb psixoloqlarının iştirakı ilə "Dini radikalizmlə mübarizə və maarifləndirmə" mövzusunda panellə davam etdirəcək.

# Ədliyyə Nazirliyində "açıq qapı" günü keçirilib

Prezident İlham Əliyevin "Azərbaycan Xalq Cümhuriyyəti İli" elan etdiyi 2018-ci il həm də Azərbaycan ədliyyəsinin 100 illiyi ilə əlamətdardır.

Ədliyyə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, yubiley tədbirləri çərçivəsində nazirliyin məsul işçilərinin, xarici dövlətlərin ölkəmizdəki səfirliklərinin, beynəlxalq təşkilatların, vətəndaş cəmiyyətinin və media nümayəndələrinin iştirakı ilə oktyabrın 23-də Ədliyyə Nazirliyinin elektron sistemlərinin, informasiya resurslarının və ədliyyə sahəsində əhaliyə göstərilən elektron xidmətlərin təqdimatına həsr olunmuş "açıq qapı" günü keçirilib.

Bildirilib ki, Azərbaycan ədliyyəsi ölkəmizin hərtərəfli inkişafına uyğun olaraq islahatlar aparılmaqla təkmilləşir və müasirləşir. Ədliyyə orqanlarının fəaliyyətində şəffaflığın artırılması, açıq hökumət prinsiplərinin təşviqi, vətəndaş məmnunluğunun yüksəldilməsi, əhaliyə göstərilən xidmətlərin keyfiyyətinin artırılması ilə bağlı mühüm tədbirlər həyata keçirilir.

Həmçinin ədliyyə sahəsindəki yeniliklərdən bəhs olunaraq nazirlik tərəfindən aparılan 14 informasiya sistemi və onların funksiyaları, 22 dövlət orqanının 30-dan çox informasiya resursu ilə inteqrasiyası, ədliyyə fəaliyyəti ilə bağlı əhaliyə göstərilən 31 elektron xidmətdən istifadələrin sayının ötən dövrdə 11 milyonu ötməsi barədə məlumat verilib.

Tədbir iştirakçıları vətəndaş cəmiyyəti institutlarının fəaliyyəti üçün əlverişli mühitin yaradılması, ictimai iştirakçılığın genişləndirilməsi, qeyri-hökumət təşkilatlarının "Fərdi elektron pəncərə" elektron məlumat sistemi və bu sahədə tətbiq edilən yeniliklərlə tanış olublar.

Eyni zamanda, vətəndaşlıq vəziyyəti aktlarının qeydiyyatı, ailə institutunun möhkəmləndirilməsi ilə bağlı qeydiyyat şöbələrində QHT-lərin dəstəyi ilə psixoloqlar cəlb edilməklə mediasiya xidmətinin göstərilməsi, həmçinin notariat kontorlarını vahid şəbəkədə birləşdirən "Elektron notariat" informasiya sisteminin tətbiqi maraqla qarşılanıb. Notariat sənədlərinin həqiqiliyinin yoxlanılması üçün sistem, elektron apostil, notariat arxivinin elektronlaşdırılması kimi innovativ layihələrin təqdimatı keçirilib, səyyar qaydada notariat hərəkətlərinin rəsmiləşdirilməsi üçün zəruri avadanlığın kompakt şəkildə yerləşdirildiyi xüsusi elektron çantalar nümayiş olunub.

İctimai xidmətlərin müasir modeli olan Azərbaycan brendi "ASAN xidmət" çərçivəsində, həmçinin notariat və qeydiyyat sahəsində əhaliyə səmərəli xidmətlər göstərildiyi qeyd edilərək, həmin mərkəzlərdə verilən sənədlərin böyük hissəsinin ədliyyə qurumlarının payına düşməsi vurğulanıb.

Vətəndaş cəmiyyətinin nümayəndələri çıxış edərək ədliyyə fəaliyyətinin təkmilləşdirilməsi üzrə görülən tədbirləri yaxından izlədiklərini, tətbiq olunan elektron və informasiya sistemlərinin, e-xidmətlərin ədliyyə qurumlarına əlçatanlığın asanlaşmasına, həmçinin digər dövlət qurumları və qeyri-hökumət təşkilatları ilə qarşılıqlı fəaliyyətin səmərəliliyinə xidmət etdiyini vurğulayıblar.

Sonda iştirakçıları maraqlandıran suallar cavablandırılıb, faydalı diskussiya keçirilərək fikir mübadiləsi aparılıb.

# Səməd Seyidov: Fransa bələdiyyə başçılarının Azərbaycanın işğal olunmuş ərazilərinə qanunsuz səfərləri birbaşa təxribatdır



Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri Səməd Seyidov Fransanın Alforvil, Valans və Sent-Etyen şəhərlərinin merlərinin Azərbaycanın Ermənistan tərəfindən işğal olunmuş ərazilərinə qanunsuz səfərləri ilə bağlı AZƏRTAC-a açıqlama verib.

### FRANSADA AZƏRBAYCANA QARŞI QƏRƏZLİ MÖVQE TUTAN XÜSUSİ QRUP FƏALİYYƏT GÖSTƏRİR

Azərbaycan-Fransa münasibətlərinin ölkəmiz üçün önəmini qeyd edən Səməd Seyidov bildirib ki, iki ölkə arasındakı əlaqələr həm regionda sabitlik, həm də bölgənin inkişafı üçün böyük əhəmiyyət kəsb edir. Lakin təəssüf ki, son vaxtlar Fransanın bir neçə bələdiyyə rəhbəri tərəfindən Azərbaycan Respublikasının işğal edilmiş ərazilərinə qanunsuz səfərlər həyata keçirilib və bununla da beynəlxalq hüququn norma və prinsipləri, eləcə də Azərbaycanın qanunlarını kobud şəkildə pozulub. Fransada Azərbaycana qarşı qərəzli mövqe tutan xüsusi bir qrup fəaliyyət göstərir. Qondarma "Dağlıq Qarabağ rejimi" ilə dostluq qrupu bu istiqamətdə "böyük xidmətlər" göstərir. Xüsusilə Fransa parlamentinin sabiq üzvü Fransua Roşebluan erməni lobbisi tərəfindən maliyyələşdirilən, dəstəklənən, onun faktiki ruporuna çevrilən bir şəxsdir. O, açıq-aşkar şəkildə sifarişli, Azərbaycan-Fransa münasibətlərinə xələl gətirən fəaliyyətlə məşğuldur və onun ətrafına da bir qrup insan toplaşıb. Fransa bələdiyyə başçılarının bu səfərləri işğal və azərbaycanlıların etnik təmizlənməsi əsasında qurulan status-kvonun təşviqini həyata keçirmək baxımından birbaşa təxribatdır. Bunu başqa cür qiymətləndirmək mümkün deyil.

### FRANSA BƏLƏDİYYƏ BAŞÇILARININ AZƏRBAYCANIN İŞĞAL OLUNMUŞ ƏRAZİLƏRİNƏ QANUNSUZ SƏFƏRLƏRİ ÖLKƏLƏRİMİZ ARASINDAKI MÜNASİBƏTLƏRİN RUHUNA ZİDDİR

**"Burada ən xoşagəlməz məqam ondan ibarətdir ki, bu bələdiyyə başçıları işğal olunmuş ərazilərə, xüsusilə Şuşaya, Laçına gedərək həmin ərazilərin qondarma rəhbərləri ilə "bəyannamələr", "bəyanatlar" imzalayırlar. Belə sənədlərin imzalanması o deməkdir ki, Fransanın bələdiyyə başçıları Azərbaycan torpaqlarının işğalını, azərbaycanlıların əzəli, tarixi torpaqlarından etnik təmizlənmələrini qəbul edir, faktiki etnik təmizləmələri dəstəkləyirlər. Bu, öz-özlüyündə bir cinayətdir. Onu xüsusi qeyd etmək lazımdır ki, həmin yerli özünüidarəetmə orqanları Fransa və Azərbaycan arasında imzalanmış sazişlərə, sənədlərə zidd olaraq hərəkət edir, eyni zamanda, Fransanın özünün milli qanunvericiliyinə zidd və tam qanunsuz addımlar atırlar. Belə ki, Fransanın xarici işlər və Avropa məsələləri üzrə naziri və daxili işlər naziri tərəfindən bir neçə ay bundan əvvəl - 2018-ci il mayın 24-də "Yerli özünüidarəetmə orqanlarının xarici fəaliyyətinin hüquqi çərçivəsi" haqqında imzalanmış təmimi təlimat bu qurumları, yəni bələdiyyələri Fransanın beynəlxalq öhdəliklərinə hörmət etməyə çağırır və Fransa tərəfindən tanınmamış ərazi vahidlərinin separatçı qurumları ilə hər hansı şəkildə müqavilələrin bağlanmasını, səfərlərin həyata keçirilməsini və birgə tədbirlərin təşkilini qəti qadağan edir. Bu, Fransanın Xarici İşlər və Avropa Məsələləri üzrə Nazirliyi ilə Daxili İşlər Nazirliyi arasında imzalanmış bir sənəddir. Yəni, bu sənədə əsasən, Fransada fəaliyyət göstərən yerli özünüidarəetmə orqanları ölkənin xarici siyasətinə zidd olan bəyanatlar, səfərlər və digər bu kimi addımlardan çəkinməlidirlər. Fransa Konstitusiyasının 73-cü maddəsinə və yerli özünüidarəetmə qurumlarının ümumi kodeksinin L.1115-1 maddəsinə uyğun olaraq, qəbul edilmiş təmimi təlimat bu kimi, hərəkətləri qadağan edir. Ancaq təəssüflər olsun ki, biz Fransa qanunlarına, beynəlxalq hüququn norma və prinsiplərinə, həmçinin Azərbaycan-Fransa münasibətlərinin ruhuna zidd hərəkətlərin şahidi oluruq. Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri kimi, təəssüflə deməliyəm ki, Fransa hökuməti Azərbaycanın suverenliyi və ərazi bütövlüyü məsələlərinə dair bu sənədin müddəalarını dərhal yerinə yetirilməsi üçün müvafiq addımların atılması istiqamətində qətiyyət göstərmir. Hesab edirəm ki, Fransa hökuməti bu məsələ ilə bağlı qətiyyətli mövqe nümayiş etdirməlidir",** - deyə Səməd Seyidov vurğulayıb.

### MİNSK QRUPUNUN HƏMSƏDRİ OLAN FRANSA ERMƏNİSTAN-AZƏRBAYCAN DAĞLIQ QARABAĞ MÜNAQİŞƏSİ İLƏ BAĞLI KONKRET MÖVQE ORTAYA QOYMALIDIR

Milli Məclisin komitə sədri qeyd edib ki, Fransanın ATƏT-in Minsk qrupunun həmsədri olduğunu nəzərə alsaq, bu ölkənin yerli özünüidarəetmə orqanları rəhbərlərinin hərəkətləri Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həllinə də əngəllər yaradır, Fransanın vasitəçilik missiyasına ciddi xələl gətirir. Fransa ATƏT-in Minsk qrupunun həmsədri, həm də BMT-nin Təhlükəsizlik Şurasının üzvü olaraq Ermənistan qoşunlarının Azərbaycanın işğal olunmuş ərazilərindən dərhal çıxarılması ilə bağlı bəyanatlarla çıxış etməlidir. Konkret mövqe ortaya qoymalı, bu istiqamətdə işlər aparmalıdır. Təəssüflər olsun, biz bunu görmürük.

Azərbaycanın AŞPA-dakı nümayəndə heyətinin rəhbəri kimi Fransanın Strasburq şəhərinə səfərlər etdiyini bildirən Səməd Seyidov deyib: **"Bu gün Fransada özünü mühacir adlandıran bir qrup şəxslər var və onlar terrora, zorakılığa çağırış edən bəyanatlar səsləndirirlər, faktiki terrorun təbliği ilə məşğuldurlar. Əfsus ki, Fransa hökuməti tərəfindən bu cür hərəkətlərin də qarşısının alınması ilə bağlı qətiyyətli addımlar atılmır.**

**Bu yaxınlarda Ermənistanda Frankofoniya adlı sammit keçirildi. Frankofoniya humanitar təşkilatdır, onun sammiti humanitar cinayəti törədən ölkədə keçirilib. Yəni, Xocalı soyqırımını törədən, Azərbaycan torpaqlarını işğal edən, həmin ərazilərdə qondarma rejim quran ölkənin paytaxtında humanitar tədbir təşkil olunur. Bu, bizdə çox ciddi narahatçılıq doğurur".**

### BELƏ ADDIMLAR ƏLAQƏLƏRİMİZİN İNKİŞAFINA KÖLGƏ SALIR

Fransa-Azərbaycan münasibətlərinin yalnız mədəni əlaqələri, elmi mübadilələri və bu kimi məsələləri əhatə etmədiyini diqqətə çatdıran Milli Məclisin komitə sədri Səməd Seyidov bildirib ki, bu gün iki ölkə arasında güclü iqtisadi əlaqələr də mövcuddur. Azərbaycanda Fransa şirkətlərinin fəaliyyəti üçün çox yüksək səviyyədə şərait yaradılıb. Fransa şirkətlərinin ölkəmizdə həyata keçirdikləri layihələrin ümumi dəyəri 2 milyard dollardan çoxdur. Onların arasında "Total", "Suez", "Thales International" kimi böyük şirkətlər də var. Bu şirkətlər Azərbaycanda fəaliyyət göstərərək pul qazanırlar. Bu nöqteyi-nəzərdən, belə addımların əlaqələrimizin inkişafına kölgə salması göz qabağındadır.

Hesab edirəm ki, belə səfərlər və Fransa hökuməti tərəfindən bu səfərlərə lazım olan qiymətin verilməməsi iqtisadi əlaqələrimizə ciddi xələl gətirə bilər. Biz bir vətəndaş, parlament üzvləri olaraq fikirləşməliyik ki, Azərbaycanın ərazi bütövlüyünə hörmət etməyən, qondarma rejimlə qeyri-qanuni sənədlər imzalayan, faktiki cinayəti dəstəkləyən, onu tanıyan, bələdiyyələrə lazım olan qiyməti verməyən ölkənin iş adamları ilə əlaqə qurmaq lazımdırmı?

Mən istərdim, Fransa tərəfi və bizim həmkarlarımız, tərəfdaşlarımız başa düşsünlər ki, Azərbaycan sülh, inkişaf istəyir. Biz Fransa-Azərbaycan münasibətlərinin ən yüksək səviyyədə inkişafını arzulayırıq. Ancaq beynəlxalq hüquq, Birləşmiş Millətlər Təşkilatının qəbul etdiyi qətnamələr, Avropa Şurasının, Avropa Parlamentinin, ATƏT-in sənədləri əsasında, ərazi bütövlüyümüz çərçivəsində, dünyanın heç bir ölkəsi tərəfindən tanınmayan qondarma rejimə dəstəyin verilməməsi istiqamətində aparılan işləri görmək istəyirik. Həm bələdiyyələrin, həm parlamentin, həm də hökumətin hiss olunan mövqeyini görmək istəyirik.

# Azərbaycanda dövlət-din münasibətlərinin yüksək səviyyədə olması multikulturalizm siyasətinin mühüm təzahürlərindəndir




Roma şəhərində, Xarici İşlər və Beynəlxalq Əməkdaşlıq Nazirliyində ATƏT-in İtaliya sədrliyi və təşkilatın Demokratik Təsisatlar və İnsan Haqları Bürosunun birgə təşkilatçılığı ilə "ATƏT regionunda hərtərəfli cavaba doğru: din və etiqad zəminində dözümsüzlük və ayrı-seçkiliklə mübarizəyə dair" mövzusunda konfrans keçirilib.

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Millətlərarası münasibətlər, multikulturalizm və dini məsələlər şöbəsinin müdiri Etibar Nəcəfov konfransda iştirak edib.

Yüksək səviyyəli konfransda irqçilik, ksenofobiya, antisemitizm, xristianlara, müsəlmanlara, digər din və etiqad nümayəndələrinə münasibətdə dözümsüzlük barədə danışılıb. Həmçinin dini azadlığın və plüralizmin təmin edilməsində dözümlülük və qeyri ayrı-seçkiliyin təşviqi məsələləri müzakirə olunub.

Tədbirdə ayrı-seçkiliyin və dözümsüzlüyün artan təzahürlərinin aradan qaldırılmasında kütləvi informasiya vasitələrinin roluna, son zamanlar cəmiyyətdə geniş yayılan mənfi stereotiplərin ləğvində, qarşılıqlı hörmət və anlaşmanın təşviqində təhsil proqramlarının əhəmiyyətinə diqqət çəkilib. Bundan başqa, ayrı-seçkiliyin və dözümsüzlüyün bütün formalarının ləğv edilməsində ATƏT-ə üzv ölkələrin müsbət təcrübəsinin geniş müzakirəsinə xüsusi önəm verilib.

Etibar Nəcəfov konfransın "Dözümsüzlük və ayrı-seçkiliyin həllində yaxşı təcrübələr" mövzusuna həsr edilmiş panelində "Azərbaycan Respublikasında dövlət-din münasibətlərinin xüsusiyyətləri" adlı məruzə ilə çıxış edib. O, müasir dövrdə qloballaşma şəraitində dünya ölkələrində etnik, dini, mədəni müxtəlifliklərin artdığının müşahidə olunduğunu bildirərək onların tənzimlənməsinin vacibliyini qeyd edib.

Şöbə müdiri multikulturalizm siyasətinin etnik-mədəni müxtəlifliklərin tənzimlənməsinin ən optimal siyasət modeli olduğunu söyləyib, Azərbaycanın ölkədəki etnik-mədəni müxtəliflikləri multikulturalizm siyasəti vasitəsilə tənzimləyən nadir ölkələrdən olduğunu, bu siyasətin əsasının Ulu öndər Heydər Əliyev tərəfindən qoyulduğunu, müasir dövrdə isə Prezident İlham Əliyev tərəfindən uğurla aparıldığını diqqətə çatdırıb. O, Qərb ölkələrində multikulturalizmin dərin böhranla üzləşdiyi bir şəraitdə Azərbaycanda onun həm dövlət, həm də xalq tərəfindən hərtərəfli dəstəkləndiyini vurğulayıb.

Multikulturalizmin Azərbaycanın daxili siyasətinin tərkib hissəsi kimi çıxış etdiyini deyən Prezident Administrasiyasının rəsmisi onun mühüm təzahürlərindən biri kimi ölkəmizdə dövlət-din münasibətlərinin yüksək səviyyədə olduğunu qeyd edib. Bunun əsas göstəriciləri kimi ölkəmizdə dini azadlıqların təmin edilməsini, bütün dinlərin, məzhəblərin qanun qarşısında bərabər olmasını, dini icmaların fəaliyyətlərinə dövlət tərəfindən hər cür dəstəyin göstərilməsini, həmçinin dinlərarası münasibətlərin qarşılıqlı hörmət və əməkdaşlıq əsasında qurulmasını konfrans iştirakçılarının diqqətinə çatdırıb.

# Uğurlu nəticələr Azərbaycanın dinamik inkişaf yolunda olduğunu bir daha təsdiqləyir



***Milli Məclisin deputatı Azər Badamov www.yap.org.az saytına müsahibə verib:***

**- Azər müəllim, bu günlər ölkəmizdə cari ilin 9 ayının yekunları cəmiyyətimizdə geniş müzakirə olunur. Ölkəmizdə davamlı şəkildə inkişaf etdirilən iqtisadi-sosial siyasət bu 9 ayda hansı uğurları ilə yadda qaldı?**

- Ulu öndər Heydər Əliyevin yaratmış olduğu mükəmməl inkişaf doktrinasının təməlləri üzərində inkişaf etdirilən və yeni iqtisadi qanunauyğunluqlar üzərində diversifikasiya olunan fundamental konsepsiyanın həyata keçirilməsi ölkəmizin iqtisadi dayanıqlılığını artıran əsas amillərdəndir. Prezident İlham Əliyevin yaratdığı yeni makroiqtisadi platforma və inkişaf formulu Azərbaycanın son illər proqressiv meyillərlə irəliləməsinin əsas konseptlərini təşkil edib. Makroiqtisadi sabitliyin qorunub saxlanması, enerji, ərzaq və ekoloji təhlükəsizliyin təmin olunması, iqtisadiyyatın diversifikasiyası, bütün sahələrdə inkişaf strategiyasının uğurla həyata keçirilməsi nəticəsində bu gün Azərbaycan bütövlükdə Cənubi Qafqazın lideri və dünyanın ən sürətli inkişaf tempinə malik ölkələrindən biridir. Bunu bir neçə gün öncə açıqlanan Dünya İqtisadi Forumunun Qlobal Rəqabətlilik Hesabatı da təsdiqləyir. Təbii ki, ölkəmizdə istər neft, istərsə də qeyri-neft sektorunun əsaslı inkişafı davamlı şəkildə aparılan siyasətin nəticəsində əldə edilib. Qeyri-neft sektorunun aparıcı sahələri bu gün yeni innovasiyalara əsaslanan siyasət nəticəsində inkişaf etdirilir.

Möhtərəm Prezidentimiz də Nazirlər Kabinetinin 2018-ci ilin doqquz ayının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında bildirdi ki, bu il iqtisadi sahədə köklü islahatlar davam etdirilir və biz bu islahatların nəticələrini görürük. Əldə edilən nəticələr özü bunu deməyə əsas verir. Azərbaycan artıq dünyada ixracatçı ölkə kimi qəbul olunur. Fərqli sahələr üzrə ixrac ildən-ilə artır. Bu ilin 9 ayında xarici ticarətimizin müsbət saldosu 6,5 milyard dollar təşkil edib və ixracımız idxaldan daha yüksək templərlə artır. Bu, olduqca mühüm bir rəqəmdir və hazırkı beynəlxalq iqtisadi münasibətlər zəminində buna nail olmaq heç də asan deyil. Eləcə də kənd təsərrüfatında mühüm inkişaf nəzərə çarpır və bu sahədə də 4,3 faiz artım var. Eyni zamanda, dövlətin özəl sektorun inkişafına göstərdiyi diqqəti xüsusi qeyd etmək lazımdır. Möhtərəm Prezidentimiz bildirdi ki, bu günə qədər Sahibkarlığın İnkişafı Fonduna 2,2 milyard manat vəsait ayrılıb və bu proses davam etdirilir. Bu diqqət və qayğı nəticəsində yerlərdə kənd təsərrüfatının inkişafına nail olunub. Qəbul olunmuş müvafiq Dövlət proqramlarının uğurlu icrası isə bu inkişafı daha da dinamik edir. Bütövlükdə, ötən dövrün yekunları, uğurlu nəticələr Azərbaycanın dinamik inkişaf yolunda olduğunu bir daha təsdiqləyir.

**- Ötən 9 ayda ölkəmizin beynəlxalq nüfuzunun daha da möhkəmlənməsi istiqamətində də mühüm addımlar atılıb. Bununla bağlı fikirlərinizi bilmək istərdik...**

- Azərbaycan dövləti bu gün beynəlxalq aləmdə həm regionun sabitləşdirici amili, həm də multikultural dəyərləri yaşadan və inkişaf etdirən ölkə olaraq qəbul edilir. Ölkə Prezidentinin apardığı uğurlu xarici siyasət kursu bütün beynəlxalq təşkilatlarla əlaqələrin daha da genişlənməsinə yol açıb. Prezident İlham Əliyevin Sədrliyi ilə keçirilən Nazirlər Kabinetinin 2018-ci ilin doqquz ayının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında ölkəmizin bu il beynəlxalq imicinin artması ilə bağlı mühüm fikirlər səsləndirildi. Möhtərəm Prezidentimizin də qeyd etdiyi kimi, Azərbaycanın xarici siyasətində həm müsəlman ölkələri, həm də Qərb dövlətləri ilə əlaqələrin inkişaf etdirilməsi prioritet xarakter daşıyır. Eləcə də qonşu dövlətlərə münasibətlərimizin inkişafı məsələsi hər zaman öz aktuallığını qorumaqdadır. Bu mənada, Xəzər dənizinin hüquqi statusuna dair Konvensiyanın qəbul edilməsi xüsusi qeyd olunmalıdır. Ölkə başçısının vurğuladığı kimi, bu, olduqca tarixi bir sənəddir və bu sənəddə ölkəmizin milli maraqları qorunub. Qəbul edilən Konvensiya Xəzəryanı ölkələrin qarşılıqlı əlaqələrinin inkişafında yeni mərhələ sayıla bilər. Bundan başqa, ötən 9 ayda İslam Əməkdaşlıq Təşkilatındakı fəaliyyətimiz də xüsusi qeyd edilməlidir. Çünki Azərbaycan bu təşkilatda təmsil olunan bir çox ölkələr ilə mühüm tərəfdaşlıq əlaqələrinə malikdir.

Dövlət başçısının bildirdiyi kimi, Azərbaycan İslam həmrəyliyinə də olduqca mühüm töhfələr verir. Bu il Azərbaycanın ikinci şəhərinin, Bakıdan sonra bu dəfə Naxçıvan şəhərinin İslam Mədəniyyətinin Paytaxtı adına layiq görülməsi ölkəmizin bu təşkilatdakı nüfuzunun göstəricisidir. Bu il ölkəmizdə bir sıra mühüm beynəlxalq tədbirlər keçirilib və qarşılıqlı münasibətlərin daha yüksək formada inkişaf etməsində bu amilin də rolu xüsusi dəyərləndirilməlidir.

**- Azərbaycan son dövrlərdə aparıcı beynəlxalq təşkilatlardakı mövqelərini möhkəmləndirir. Sizcə, bu amil Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həllinə hansı dərəcədə təsir göstərir?**

- Bu, olduqca mühüm bir amildir. Bildiyiniz kimi, Azərbaycan BMT Təhlükəsizlik Şurasında təmsil olunub və orada da uğurlu sədrlik dövrü yaşayıb. Bu il Azərbaycanda Qoşulmama Hərəkatının xarici işlər nazirlərinin böyük konfransı keçirilib və ölkəmiz gələn ildən başlayaraq Qoşulmama Hərəkatına sədrlik edəcəkdir. Bu, ölkəmizin beynəlxalq aləmdəki nüfuzunun ildən-ilə artmasını təsdiqləyən mühüm faktlardır. Ən əsası, ölkə Prezidenti İlham Əliyevin xarici səfərləri, keçirilən görüşlər, eləcə də bir sıra dövlət və hökumət başçılarının Azərbaycana səfərləri ölkəmizin beynəlxalq münasibətlər sistemində mühüm yer tutduğunu göstərir. Beynəlxalq təşkilatların, aparıcı dövlətlərin Azərbaycanla bağlı müsbət mövqeyi, ölkəmizin regionda oynadığı rolu yüksək dəyərləndirməsi mühüm faktorlardandır.

Bu il ölkəmiz Avropa İttifaqı ilə əlaqələrinin daha da möhkəmləndirilməsi istiqamətində olduqca ciddi bir addım olan "Tərəfdaşlıq prioritetləri" sənədinə imza atıb. Bu sənəd bir çox məsələlərə görə önəm daşıyır və ən əsası, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı burada yer alan məsələlər ölkəmizin maraqlarına cavab verir. Bu sənəddə ölkəmizin ərazi bütövlüyü dəstəklənir və bu da münaqişənin ədalətli həllində, sülh danışıqlarında olduqca mühüm bir nailiyyət sayılmalıdır. Aİ ilə ölkəmiz arasında imzalanan "Tərəfdaşlıq prioritetləri" adlı sənəd Azərbaycanın ərazi bütövlüyünün Avropa İttifaqı tərəfindən dəstəkləndiyini bir daha təsdiqləyir. Bununla yanaşı, bu il NATO-nun Zirvə görüşünün yekun sənədində də Azərbaycanın ərazi bütövlüyü bir daha quruma daxil olan dövlətlər tərəfindən dəstəkləndi və bu məsələ Zirvə görüşünün yekun bəyannaməsində öz əksini tapdı. Uğurlu xarici siyasət kursu nəticəsində əldə olunan bu kimi nailiyyətlər ölkəmizə Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli prosesində hüquqi mənada olduqca mühüm üstünlüklər qazandırır.

**- Bu il həm də Prezident İlham Əliyevin dövlət başçısı kimi fəaliyyətinin 15 ili tamam oldu. Ötən 15 ilin ölkəmizin inkişaf tarixindəki yerini necə dəyərləndirirsiniz?**

- Müasir Azərbaycanımızın möhkəm dayaqlara əsaslanan və inkişafı hədəfləyən özünəməxsus milli inkişaf modeli yaranıb. 2003-cü ilin 15 oktyabr seçkilərində xalqın böyük inam və etimadını qazanaraq Azərbaycan Respublikasının Prezidenti seçilmiş cənab İlham Əliyev ötən 15 ildə xalqımızın göstərdiyi etimadı tam doğruldaraq ölkəmizi davamlı yüksəliş yoluna çıxarıb. Ulu öndər Heydər Əliyev siyasi məktəbini keçmiş, yüksək, müasir intellekti və qabiliyyəti ilə Azərbaycan dövlətini uğurdan-uğura daşıyan möhtərəm Prezidentimiz İlham Əliyevin elmi təmələ əsaslanan iqtisadi siyasəti respublikanın inkişaf prosesində dinamizmi və məqsədyönümlülüyü təmin etdi, hər bir mərhələ üçün qarşıda duran vəzifələrin yerinə yetirilməsinə real imkanlar açdı, cəmiyyətin ümumi potensialının milli məqsədlər naminə səfərbər olunmasına möhkəm və etibarlı zəmin formalaşdırdı.

Məhz möhtərəm Prezidentimiz İlham Əliyevin səyi və qətiyyəti nəticəsində milli iqtisadiyyatımızın liberallaşdırılması, ölkəmizin beynəlxalq aləmdə geosiyasi və geoiqtisadi çəkisinin artması, sosial, iqtisadi və siyasi sabitliyin təmin edilməsi, vətəndaş-dövlət birliyinə nail olunması və digər amillər müstəqil Azərbaycanın yüksələn xətlə inkişafına səbəb oldu. Bazar iqtisadiyyatı münasibətlərinə söykənən liberal iqtisadi sistemin qurulmasına, Azərbaycanın zəngin təbii sərvətlərindən səmərəli istifadə edilməsinin, respublikanın investisiya cəlbediciliyinin yüksəldilməsinin və digər konseptual əhəmiyyətli tədbirlərin nəticəsi olaraq son 15 ildə milli iqtisadiyyatımız yeni keyfiyyət parametrləri ilə möhkəm təməl üzərində sürətlə inkişaf edib. Qəbul olunmuş müvafiq Dövlət proqramları ölkəmizin uğurlu inkişafı üçün ən vacib düstura çevrilib. Bu gün Azərbaycanda təbii-iqtisadi imkanlardan istifadə etməklə çox güclü və dayanıqlı bir iqtisadiyyat formalaşıb. Ölkənin makroiqtisadi göstəriciləri hər il artımla müşahidə olunur. Bir daha qeyd etmək gərəkdir ki, məhz Prezident İlham Əliyevin yürütdüyü müasir dünyanın tələblərinə uyğun, yüsək təminatlı və ən əsası, vətəndaşlarımızın sosial rifahını özündə əks etdirən siyasi kurs yeni inkişaf mərhələsinə qədəm qoyan Azərbaycan dövlətinin bütün sahələrdə yüksək göstəricilərə nail olmasında müstəsna rol oynayıb. Milli inkişaf modelinin uğurla tətbiqi və hədəflənən məqsədlərə çatılması, sosial-siyasi islahatların ardıcıl qaydada həyata keçirilməsi, qanunvericilik bazasının zənginləşdirilməsi, vətəndaş cəmiyyətinin formalaşdırılması, həmçinin hüquqi dövlət quruculuğu yolunda atılan addımlar Azərbaycanın hər sahədə dinamik inkişafını təmin edən faktorlardır.

# İcbari tibbi sığortanın tətbiqi əhalinin sağlamlığının daha effektiv qorunması yönündə mühüm addım olacaq

*Xarici və yerli mütəxəssislərin ümumi qənaətinə görə, Azərbaycan hökuməti İTS layihəsini bütün ölkə ərazisində uğurla həyata keçirə biləcək*

Məlum olduğu kimi, son illərdə Azərbaycanda icbari tibbi sığortanın (İTS) tətbiq edilməsi istiqamətində xeyli iş görülüb. İTS-nin bütün ölkə üzrə geniş tətbiqi isə 2019-cu ildən nəzərdə tutulur. Bəs görəsən, İTS-nin Azərbaycanda tətbiqi əhaliyə göstərilən səhiyyə xidməti sahəsində hansı yenilik və üstünlüklərlə özünü göstərəcək?

### İCBARİ TİBBİ SIĞORTANIN YARANMASI VƏ ONUN GƏLƏCƏK İNKİŞAFINI MÜƏYYƏNLƏŞDİRƏN BEYNƏLXALQ TƏCRÜBƏ

Hələ XVII-XVIII əsrlərdə, əsasən, Avropa ölkələrində sosial sığorta sahəsi ilə özəl şirkətlər məşğul olurdu. Sənayenin inkişaf etməsindən sonra iri zavod-fabriklərin yaranması sığorta prosesinə əhalinin bir çox təbəqəsindən insanların cəlb olunmasına şərait yaratdı. İTS-nin yaranması isə 21 may 1913-cü ildə İsveçdə "Xəstəlik, əlillik hallarında və qocalıq dövründə icbari sığorta haqqında" Qanunun qəbul edilməsindən sonra reallaşdı. Qanuna əsasən, 16-66 yaşları arasında olan bütün İsveç vətəndaşları məcburi sığortalanırdılar. Bir qədər sonra Avstriya, Belçika, Norveç və digər ölkələr qanunvericiliklərində müvafiq islahatlar apardı, Almaniya və Rusiya kimi böyük dövlətlərdə də bu sahədə bəzi addımlar atıldı.

Beləliklə, müxtəlif ölkələrdə İTS təcrübəsi onun gələcək inkişafını müəyyənləşdirdi. Bu baxımdan, müasir dövrdə İTS-nin xarici ölkələrdə tətbiqi təcrübəsinə qısaca diqqət yetirək.

Rusiyada İTS dövlət sosial sığortasının ayrılmaz tərkib hissəsidir və ölkənin bütün vətəndaşlarına icbari tibbi sığorta hesabına tibbi yardım göstərilir. Rusiyada İTS-ni tənzimləyən ən vacib normativ-hüquqi akt - 29 noyabr 2010-cu il tarixli "Rusiya Federasiyasının icbari tibbi sığortası haqqında" Qanunudur. İcbari tibbi sığorta sahəsində dövlət siyasətini Federal İcbari Tibbi Sığorta Fondu həyata keçirir.

Türkiyə Respublikasında İTS Sosial Müdafiə Qurumunun "Ümumi tibbi sığorta" sisteminin tərkib hissəsi kimi tətbiq olunur. "Ümumi tibbi sığorta" 1 oktyabr 2008-ci il tarixində 5510 saylı qanuna əsasən qüvvəyə minsə də, İTS-nin tətbiqinə 1 yanvar 2012-ci il tarixindən başlanılıb. İTS 18 yaşına çatmış bütün Türkiyə vətəndaşlarına şamil edilir. Sosial Müdafiə Qurumu əvvəlcə vətəndaşın statusunu və ödəniləcək məbləği müəyyən etmək üçün ailənin hər bir üzvünün orta aylıq gəlirinə görə "gəlir testi" aparır. Bu test nəticəsində müəyyən məbləğdən az gəlir əldə edən vətəndaş pulsuz müayinə hüququ qazanır. Türkiyədə 18 yaşdan yuxarı olan, orta məktəb və ya digər təhsil ocaqlarında oxuyanlar 20, ali təhsil məktəblərində oxuyanlar 25 yaşına qədər valideynlərin tibbi sığortasından faydalana bilərlər.

### İTS-NİN TƏTBİQİ SƏHİYYƏ İŞÇİLƏRİNİN MAAŞLARININ ARTMASINA DA ŞƏRAİT YARADACAQ

Xatırladaq ki, İTS - Azərbaycan dövləti tərəfindən əhalinin sağlamlığının qorunmasına yönəldilmiş sosial layihədir. "İcbari tibbi sığorta haqqında" Qanun Milli Məclis tərəfindən 1999-cu ildə qəbul olunub. Prezident İlham Əliyevin 27 dekabr 2007-ci il tarixli Sərəncamı ilə Nazirlər Kabineti yanında İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi (İTSDA) yaradılıb.

İTSDA əvvəlcə Mingəçevir şəhəri və Yevlax rayonunu, daha sonra isə Ağdaş rayonunu İTS-nin tətbiqi üçün pilot ərazilər olaraq seçib və 1 yanvar 2017-ci il tarixindən pilot layihənin icrasına başlanılıb. Layihənin məqsədi əhalini və tibb müəssisələrini İTS sisteminə keçidə hazırlamaq, tibbi xidmətin maliyyələşməsində yeni mexanizmlərin tətbiqini sınaqdan keçirməkdir.

İTSDA-nın Tibbi sığorta departamentinin müdiri Vüqar Qurbanovun sözlərinə görə, pilot ərazilərdə İTS-nin tətbiqi tibbi sığortanın baza zərfinə (paketinə) daxil olan xidmətlər çərçivəsində aparılır. Baza zərfi - İTS-nin maliyyə mənbələri hesabına sığorta olunanlara göstərilən tibbi xidmətlərin toplusudur. Xidmətlərə ilkin səhiyyə, təcili və təxirəsalınmaz tibbi yardım, ambulator, stasionar, laborator, fizioterapiya və həyati vacib - dəyəri yüksək olan xidmətlər daxildir. Onu da qeyd edək ki, pilot ərazilərdə layihə müddətində əhalidən sığorta haqqı yığılmır.

İTS-nin tətbiqi səhiyyə işçilərinin maaşlarının artmasına da şərait yaradacaq. Belə ki, İTSDA-nın Tibb müəssisələri və regionlarla iş şöbəsinin müdiri Sadiq Mədətovun sözlərinə görə, pilot layihə çərçivəsində həkimlərin, digər tibb işçilərinin əmək haqları artırılıb.

### AZƏRBAYCAN HÖKUMƏTİNİN YÜKSƏKKEYFİYYƏTLİ SƏHİYYƏ XİDMƏTLƏRİ GÖSTƏRMƏK ÜÇÜN REAL İMKANLARI VAR

Mütəxəssislər ölkəmizdə İTS-nin tətbiqinin uğurlu olacağına əmindirlər.

Belə ki, 2017-ci ilin noyabrından Avropa İttifaqının dəstəyi ilə Avropa Qonşuluq Siyasəti çərçivəsində "Azərbaycanda icbari tibbi sığorta sisteminin tətbiqinə dəstək" tvinninq layihəsi fəaliyyətə başlayıb. Bu layihə çərçivəsində İTSDA tərəfindən 13 hüquqi sənədə (Mülki, İnzibati Xətalar, Əmək və Vergi məcəllələri, "Uşaqların icbari dispanserizasiyası", "Əhalinin sağlamlığının qorunması haqqında" qanunları və s.) dəyişikliklər layihəsi hazırlanıb.

Tvinninq layihəsinin daimi müşaviri Qediminas Çerniauskas islahatın məqsəd və çətinliklərindən bəhs edərkən bildirib ki, Azərbaycan hökumətinin yüksəkkeyfiyyətli səhiyyə xidmətləri göstərmə və maliyyə ehtiyatlarından daha səmərəli şəkildə istifadəetmə üzrə real imkanları var. Q.Çerniauskas qeyd edib ki, səhiyyənin maliyyələşdirilməsinin artırılması ilə qeyri-rəsmi nağd ödənişlərin əvəzlənməsinə nail olmaq mümkündür.

### AZTƏMİNATLI AİLƏLƏRİN SƏHİYYƏ XİDMƏTİNDƏN PULSUZ İSTİFADƏSİNƏ İMKAN YARANACAQ

İTS-nin perspektivlərinə toxunan İTSDA-nın İdarə Heyətinin sədri Zaur Əliyev səhiyyə sahəsində yeni maliyyələşmə mexanizmlərinin tətbiqi və onlara nəzarət sisteminin yaradılmasının, statistik məlumatların toplanması və təhlili sisteminin təkmilləşdirilməsinin önəmini vurğulayıb.

Azərbaycanda İTS haqqının məbləği və ödənilməsinə gəlincə, İTSDA-nın Monitorinq, təhlil və aktuari departamentinin rəhbəri Araz Nəsirov deyib ki, muzdlu işçilərin əməkhaqqından faiz tutulması, digər vətəndaşlardan illik 120 manat məbləğində sığorta alınması təklif edilir. Onun sözlərinə görə, Avropa ölkələrində işəgötürən və işçilərdən 5 faizdən 15 faizədək İTS haqqı tutulur. Azərbaycanda isə ilkin mərhələdə bu vəsaitin 3 faizə yaxın olması, bunun 2 faizinin işçinin, 1 faizinin isə işəgötürənin payına düşməsi təklif olunur. Türkiyədə olduğu kimi, Azərbaycanda da 18 yaşınadək uşaqlar, əyani təhsil alan tələbələr, pensiya, sosial müavinət, ünvanlı sosial yardım alanlar, hamilə qadınlar İTS haqqı ödəməkdən azaddırlar.

İTS-nin tətbiqi dövlətin səhiyyə xərcini də azalda bilər. Tvinninq layihəsinin müşaviri Q.Çerniauskasın sözlərinə görə, səhiyyənin maliyyələşdirilməsi islahatı uğurlu olarsa, Azərbaycan 3-4 il ərzində xidmətlərin həcmini iki dəfəyə qədər artırmaq və hər xidmət üçün ümumi səhiyyə xərclərini 50 faizə qədər azaltmaq potensialına malikdir. Belə ki, 1 dəfə həkimə müraciət və xəstəxanada müalicə 2022-ci ildə 2018-ci ilin xərcləri ilə müqayisədə iki dəfə az ola bilər.

İTS-nin yenilik və üstünlüklərinə gəlincə, bu sistemin tətbiqi ilə bir çox hallarda il ərzində səhiyyə xidmətinə ehtiyacı olmayan vətəndaşların ödədiyi vəsait hesabına digər sağlamlıq problemi olan vətəndaşın yüksək səviyyədə tibbi xidmət almasına şərait yaranacaq. Digər tərəfdən, səhiyyə xərclərinin azalması ilə vətəndaşlar pullarına qənaət edəcək, aztəminatlı və ya işsiz statusu olanların səhiyyə xidmətindən pulsuz istifadəsinə imkan yaranacaq. Yəni həmin kateqoriyadan olanlar üçün sığorta haqları dövlət tərəfindən ödəniləcək, vətəndaşlar sığorta sənədini ("sığorta polisi") göstərməklə pulsuz müalicə oluna biləcəklər.

Yekun olaraq deyək ki, 2019-cu ildən Azərbaycanda geniş şəkildə tətbiqi nəzərdə tutulan İTS səhiyyənin maliyyələşdirmə bazasını dəyişməklə əhalinin sağlamlığının qorunması yönündə mühüm töhfə verəcək. Xarici və yerli mütəxəssislərin ümumi qənaəti isə belədir ki, Azərbaycan hökuməti icbari tibbi sığortanın tətbiqini uğurla həyata keçirə biləcək.

**Qaşqay ZİYƏDDİNOĞLU**

**Məqalə İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin elan etdiyi "Əhalinin sağlamlığının qorunmasında icbari tibbi sığortanın rolu" mövzusunda yazı müsabiqəsinə təqdim olunur**

# Diasporla İş üzrə Dövlət Komitəsində tatarıstanlı qonaqlarla görüş keçirilib





Azərbaycan Respublikası Diasporla İş üzrə Dövlət Komitəsində Tatarıstan Xalqlar Dostluğu Evinin direktoru, Tatarıstan Respublikası Dövlət Şurasının deputatı İrek Şaripov ilə görüş keçirilib. Komitədən verilən məlumata görə, görüşdə Tatarıstandakı Azərbaycan diaspor təşkilatlarının, eləcə də Azərbaycandakı tatar icmasının fəaliyyəti və bir sıra qarşılıqlı maraq doğuran məsələlər müzakirə olunub. Görüşdə komitə sədri Fuad Muradov qurumun fəaliyyəti barədə qonaqlara ətraflı məlumat verərək bildirib ki, Rusiya Federasiyasında yaşayan soydaşlarımızla və diaspor təşkilatları ilə birgə iş komitənin diqqət mərkəzindədir. Komitə sədri soydaşlarımızın milli kimliyini qoruyaraq yerli cəmiyyətə inteqrasiyasının qarşıda duran əsas vəzifələrdən biri olduğunu vurğulayıb.

Daha sonra görüşdə İrek Şaripov Tatarıstandakı Azərbaycan diasporunun uğurlu fəaliyyəti, icma üzvlərinin respublikanın ictimai-siyasi və mədəni həyatındakı iştirakı, o cümlədən qarşılıqlı əlaqələrin inkişafına verdiyi töhfələr haqqında geniş söhbət açıb. O qeyd edib ki, Azərbaycan diasporunun təşəbbüsü ilə görkəmli ictimai-siyasi xadim, böyük ədib Nəriman Nərimanovun adı Kazan şəhərinin küçələrindən birinə verilib və büstü qoyulub. Bundan başqa, dünya şöhrətli alim Kazan universitetinin ordinar professoru Mirzə Kazımbəyin xatirəsi əbədiləşdirilib.

Eyni zamanda, türkdilli xalqların diasporlarının əməkdaşlığı çərçivəsində Azərbaycan-Tatarıstan əlaqələrinin genişləndirilməsinin zəruriliyi vurğulanıb.

Sonda xatirə hədiyyələri təqdim olunub.

**MÜŞFİQƏ**

# Nazir: "Həştərxan-Azərbaycan: Qadın Sahibkarlığı" Forumundan yaxşı nəticələr gözləyirik




"Həştərxan-Azərbaycan: Qadın Sahibkarlığı" Forumunda iştirak edən Rusiya Federasiyası Həştərxan vilayətinin beynəlxalq və xarici-iqtisadi əlaqələr naziri Denis Afanasyev jurnalistlərə müsahibəsində deyib: **"Həştərxan-Azərbaycan: Qadın Sahibkarlığı" Forumu çox əlamətdar və gözəl tədbirdir. Bu forum təkcə forma deyil, həm də məzmun etibarilə bu günün tələblərinə uyğundur".**

AZƏRTAC xəbər verir ki, nazir Forumun məqsədinin Azərbaycan və Həştərxan vilayətinin biznes dairələrini yaxınlaşdırmaq olduğunu qeyd edib. **"Həştərxanda Azərbaycan Biznes Mərkəzinin açılması da bu məqsədə xidmət edəcək. Həştərxandakı İşgüzar Qadınlar Assosiasiyası və Azərbaycanın qadın sahibkarları artıq Bakıda görüş keçiriblər. Qadın sahibkarlar biznes birliyinin ən fəal hissəsidir. Həştərxanda da Forumdan yaxşı nəticələr, ilk növbədə, gələcək əməkdaşlığa və əmtəə dövriyyəsinin artmasına, habelə işgüzar əlaqələrin möhkəmlənməsinə kömək edəcək biznes əlaqələrinin qurulmasını gözləyirik. Tezliklə Bakı ilə Həştərxan arasında aviareysin açılacağına çox ümid edirik. Hamımızın buna ehtiyacı var"**, - deyə D.Afanasyev sözlərinə yekun vurub.

YENİ AZƏRBAYCAN
http://www.yeniazerbaycan.com
Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

**Məqalə KİVDF-nin maliyyə dəstəyi ilə "Regionların sosial-iqtisadi inkişafının təşviq edilməsi" istiqaməti üzrə həyata keçirilən layihə çərçivəsində hazırlanmışdır**

KİVDF

# 2018-ci ilin doqquz ayı respublikamızın Mərkəzi Aran iqtisadi rayonu üçün də uğurlarla yadda qalıb

*Bəhs edilən dövrdə iqtisadiyyatın bütün sahələrində uğurlar qazanılıb, sənaye və kənd təsərrüfatının inkişafı davam edib*




2004-cü ildən etibarən böyük uğurla reallaşdırılan regionların sosial-iqtisadi inkişafına dair Dövlət proqramları respublikanın bölgələrinin ümumi inkişaf dinamikasını artırmaqla yanaşı, bütün sahələri əhatə edən layihələr sayəsində regionların ən müasir dünya standartları səviyyəsində qurulan infrastruktur təminatına malik olmasına şərait yaradıb. Eləcə də son 15 ildə reallaşdırılan sözügedən Dövlət proqramları çərçivəsində həyata keçirilən tədbirlər nəticəsində kənd təsərrüfatı sahəsində də uğurlar əldə edilib. Və bu uğurlar 2018-ci ilin 9 ayı ərzində də davam edib. Belə ki, ölkənin iqtisadi rayonlarının bu ilin doqquz ayı ərzindəki göstəricilərinə nəzər yetirdikdə deyilənlər bir daha öz təsdiqini tapır. Bu məqamda vurğulamaq yerinə düşər ki, bu ilin doqquz ayı ümumilikdə respublikamızın Mərkəzi Aran iqtisadi rayonu üçün də uğurlu olub.

Beləliklə, bu ilin üçüncü rübündə Mərkəzi Aran iqtisadi rayonuna daxil olan Salyanda iqtisadiyyatın bütün sahələrində uğurlar qazanılıb, sənaye və kənd təsərrüfatının inkişafı davam etdirilib, abadlıq, quruculuq və tikinti işləri sürətləndirilib. İlin doqquz ayı ərzində rayonda yol infrastrukturunun yaxşılaşdırılması istiqamətində mühüm tədbirlər həyata keçirilib, Ələt-Astara magistralının rayon ərazisindən keçən hissəsində, həmçinin 16 kilometrlik Qaraçala-Düzənlik-Peyk kəndlərini birləşdirən yolda, 45 kilometrlik Salyan-Neftçala avtomobil yolunda, Noxudlu kəndindən keçən Şirvan-Salyan avtomobil yolunun 13 kilometr hissəsində tikinti işləri başa çatdırılıb. 13,1 kilometr uzunluğunda Arbatan-Marışlı-Seyidsadıqlı-Quyçu kəndlərini birləşdirən kəndarası avtomobil yolunda tamamlama işləri aparılır. Bu barədə Salyanda keçirilən 2018-ci ilin üçüncü rübünün yekunları və qarşıda duran vəzifələrə həsr olunan hesabat yığıncağında rayon İcra Hakimiyyətinin başçısı Sevindik Hətəmov danışıb.

Yığıncaqda qeyd olunub ki, ötən dövrdə 38 kommunal binada əsaslı təmir işləri görülüb, bəzi küçələrdə binaların dam örtüyü yenilənib, abadlıq-quruculuq işləri aparılıb. Həsənli kəndində 100 min başlıq damazlıq quşçuluq təsərrüfatının, Kürsəngi kəndi ərazisində istixana kompleksinin, şəhər ərazisində pivə və limonad istehsalı zavodunun və bazar-ticarət mərkəzinin tikintisi əsasən başa çatdırılıb. Ümumi sahəsi 10,9 hektar olan daha 19 istixana tikilib istifadəyə verilib. Rayonun Xıdırlı kəndi ərazisində zeytun və meyvə emalı zavodlarının tikintisi başa çatıb və sınaq işləri aparılıb. Zavodların tikintisi yüzdən artıq yeni iş yerinin yaranmasına səbəb olacaq.

Bildirilib ki, üçüncü rübdə rayonda qeyri-neft sektorunun, o cümlədən kənd təsərrüfatının inkişaf etdirilməsi, yeni istehsal sahələrinin yaradılması istiqamətində bir sıra tədbirlər həyata keçirilib. Qızılağac kəndi ərazisində yaradılan aqroparkda mənbəyi Akkuşa suvarma kanalı olmaqla, ümumi uzunluğu 23 kilometr su kanalı, 0,7 kilometr qaz, 15 kilometr elektrik xətləri çəkilib, ərazidəki mövcud kollektor-drenaj şəbəkəsinin 50 kilometrlik hissəsi lildən təmizlənib. Həmçinin aqroparkda 500 başlıq 4 tövlə, texnika parkı, ofis binası və qonaq evi, 1500 tonluq taxıl anbarı, gücü saatda 10 ton olan 1 yem zavodu və 4500 tonluq yem anbarı tikilib.

Cari ilin məhsulu üçün rayonda 16 min 813 hektar taxıl, 4 min 39 hektar təzə yonca, 660 hektar dən üçün qarğıdalı, 420 hektar kartof, 1241 hektar tərəvəz, 822 hektar bostan bitkiləri və 7 min 55 hektar pambıq əkilib. Hesabat gününə kimi sahələrdən 54 min 294 ton taxıl, 5 min 94 ton kartof, 29 min 55 ton tərəvəz, 12 min 160 ton bostan məhsulunun yığımı aparılıb. Bu günədək sahələrdən 5 min 749 ton pambıq toplanılıb.

Hesabat məruzəsində o da diqqətə çatdırılıb ki, ötən doqquz ayda əhalinin işlə təmin olunması istiqamətində müvafiq tədbirlərin həyata keçirilməsi nəticəsində 725 daimi olmaqla, 6856 yeni iş yeri yaradılıb.

İclasda həmçinin rayonda əhalinin elektrik, təbii qaz və su ilə təmin edilməsi sahəsində görülən işlərdən də ətraflı söhbət açılıb, təhsil, səhiyyə, mədəniyyət sahəsində qazanılan nailiyyətlər və nöqsanlar göstərilib.

Kürdəmir rayonunda isə cari ilin doqquz ayında ümumi məhsul buraxılışının həcmi keçən ilin müvafiq dövrü ilə müqayisədə 14,5 faiz artaraq 295 milyon 350 min 800 manat təşkil edib. Məhsul buraxılışının 71,2 faizi istehsal sahələrinin, o cümlədən 50,9 faizi kənd təsərrüfatının, 16,4 faizi sənayenin payına düşüb. Doqquz ayda 701 daimi iş yeri açılıb ki, bunun da 665-i daimidir. Cari mövsümdə rayonda 136 min 417 ton mühüm strateji məhsul olan taxıl istehsal edilib. Bu isə əvvəlki ildəkindən 55 min 717 ton çoxdur. Hər hektarın məhsuldarlığı 10 sentner artaraq 30 sentnerə çatıb. Hazırda taxıl əkini sürətlə davam edir. Hələlik 5000 hektardan çox sahədə arpa, 1000 hektarda isə buğda əkilib.

İxracyönümlü məhsullar olan baramaçılığın, pambıqçılığın inkişafı da xüsusi diqqət mərkəzindədir. Builki mövsümdə rayon üzrə 20 min 380 kiloqram barama tədarük edilərək, "Azəripək" MMC-yə təhvil verilib. Bu da əvvəlki göstəricidən 2 dəfə çoxdur. Cari mövsümdə 5030 hektar sahədə "ağ qızıl" yetişdirilib. Hazırda pambıq yığımı davam edir. Yığıma 2000 nəfərdən çox işçi qüvvəsi, 14 pambıqyığan maşın və digər texnikalar cəlb olunub. İndiyədək sahələrdən 4000 tondan çox pambıq toplanıb.

Mərkəzi Aran iqtisadi rayonuna daxil olan Göyçay rayonunda da cari ilin doqquz ayında aqrar sahədə daha uğurlu nəticələr qazanılıb. Bu mövsümdə 14,7 min hektar sahədən 42,7 min ton mühüm strateji məhsul olan taxıl istehsal edilib ki, bu da əvvəlki ildəkindən 721,6 ton çoxdur. Taxılın məhsuldarlığı 0,8 sentner artaraq 29 sentner təşkil edib. Ötən ilin müvafiq dövrünə nisbətən ət, süd, yumurta istehsalı, mal-qaranın və qoyunların baş sayı artıb. Bütövlükdə hesabat dövründə kənd təsərrüfatında ümumi məhsul istehsalı 89,2 milyon manat təşkil edib ki, bu da ötən ilin müvafiq dövrünə nisbətən 1,8 faiz çoxdur. Bu məlumatlar rayonda keçirilən 2018-ci ilin sosial-iqtisadi inkişafının yekunları və qarşıda duran vəzifələrə həsr edilən yığıncaqda səsləndirilib. Rayon İcra Hakimiyyətinin başçısı Mehdi Səlimzadənin hesabat məruzəsində, eləcə də çıxışlarda kənd təsərrüfatının digər sahələrində, o cümlədən tərəvəz, barama, meyvə istehsalında əldə edilən nəticələr geniş təhlil olunub. Bildirilib ki, faraş tərəvəz istehsalı üçün ümumi sahəsi 277,65 hektar olan 7581 örtülü istixana quraşdırılıb. Doqquz ayda 44 min 725 ton tərəvəz istehsal olunub ki, bu da keçən ilin müvafiq dövrünə nisbətən 4 min ton çoxdur. Fərdi təsərrüfatlarda istehsal edilən faraş tərəvəz əsasən Rusiya bazarlarına ixrac olunub. Baramaçılığın inkişafı sahəsində də nəticələr uğurludur. Cari mövsümdə ötən ildəkindən 2,4 dəfə çox, 12 min 500 kiloqram barama tədarük edilib.

Hesabat yığıncağında sənayenin inkişafı, tikinti-quruculuq və abadlıq işləri, ümumtəhsil məktəblərinin maddi-texniki bazasının möhkəmləndirilməsi, əhalinin içməli su, elektrik enerjisi və təbii qazla təchizatının yaxşılaşdırılması və sair sahələrdə də xeyli işlərin görüldüyü diqqətə çatdırılıb, habelə qarşıda duran konkret vəzifələr geniş müzakirə olunub.

2018-ci ilin üçüncü rübü Hacıqabul rayonu üçün də uğurlarla yadda qalıb. Belə ki, iqtisadiyyatın bütün sahələri üzrə məhsul buraxılışının həcmi 234,2 milyon manata çatıb ki, bu da ötən ilin eyni dövrü ilə müqayisədə 9,6 milyon manat çoxdur. İlin doqquz ayı ərzində kənd təsərrüfatı məhsullarının həcmi 100,878 min manat, sənayedə məhsul buraxılışının həcmi 19138 min manat, ticarətdə isə 60572 min manat olub. Ötən ilin müvafiq dövrü ilə müqayisədə kənd təsərrüfatında 2,6, sənayedə 54,1, ticarətdə 6,2 faiz artım müşahidə edilib. Hesabat dövründə rayonda iqtisadiyyatın bütün sahələri üzrə əsaslı kapitala yönəldilən investisiyanın ümumi həcmi 52095 min manata çatıb. Doqquz ay ərzində 2183,6 min manatlıq əsaslı fondlar istifadəyə verilib.

Rayonda iqtisadiyyatın əsasını təşkil edən kənd təsərrüfatında islahatların uğurla həyata keçirilməsi taxılçılığın və digər növ kənd təsərrüfatı məhsulları istehsalının artması ilə nəticələnib. Hər hektardan əldə edilən məhsuldarlıq da yüksəlib. Rayonda bu ilin məhsulu üçün 43011 hektar sahədə taxıl əkilib ki, bu da 2016-cı il ilə müqayisədə 28602 hektar çoxdur. Taxıl sahəsinin 31848 hektarını buğda, 11163 hektarını isə arpa əkini təşkil edir. Zəmilərdən 76005,5 ton məhsul əldə edilib. İstehsal olunan taxılın 42344 tonu buğda, 33662 tonu isə arpadır. Məhsuldarlıq arpa bitkisi üzrə 30,1 sentnerə çatıb.

Cari ildə rayonda 1300 hektar sahədə pambıq əkilib. Bu isə keçən ildəkindən 96,1 hektar çoxdur. Hesabat gününə kimi sahələrdən 611 ton məhsul yığılıb. Məqsəd əkin sahələrindən 2600 tondan çox pambıq əldə etməkdir. Heyvandarlıq və quşçuluq sahəsində də nəzərə çarpan artım müşahidə olunub. Hesabat dövründə 5989 ton ət (diri çəkidə), 13008 ton süd, 229 ton yun, 216 min 613 ədəd yumurta istehsal olunub. Rayon üzrə iribuynuzlu heyvanların sayı 39125, xırdabuynuzluların sayı isə 137523 başa çatıb.

Onu da qeyd edək ki, rayonun 19 min əhalinin yaşadığı 10 yaşayış məntəqəsini birləşdirən Qarasu-Abdullaabad-Talış-Meyniman-Muğan avtomobil yolu inşa olunub, Atbulaq kəndində "Hajigabul Greenhouse" MMC tərəfindən 10 hektar sahədə İspaniya texnologiyası ilə istixana tikilib istifadəyə verilib. İstixananın istehsal gücü 1 hektar üçün 250-300 tondur. Kompleksdə 70 nəfər işlə təmin olunub.

(davamı növbəti sayımızda)

**Nardar BAYRAMLI**

# Operativ məlumat: oktyabrın 23-dək qəbul məntəqələrinə 158 min tondan çox pambıq təhvil verilib



Ölkə üzrə pambıq tədarükündə Saatlı, Ağcabədi, Bərdə, Beyləqan və Biləsuvar rayonları öndədir. Saatlıda 21 min 184 ton, Ağcabədidə 16 min 836 ton, Bərdədə 16 min 400 ton, Beyləqanda 14 min 597 ton, Biləsuvarda 13 min 583 ton pambıq tədarük olunub.

Dövlət Statistika Komitəsindən AZƏRTAC-a bildiriblər ki, oktyabrın 23-dək ölkə üzrə pambıq qəbulu məntəqələrinə 158 min 83 ton məhsul təhvil verilib. Bu, ötən ilin eyni dövrü ilə müqayisədə 38 min 343 ton çoxdur.

Prezident İlham Əliyevin 2017-ci il 13 iyul tarixli Sərəncamı ilə təsdiqlənmiş "Azərbaycan Respublikasında pambıqçılığın inkişafına dair 2017-2022-ci illər üçün Dövlət Proqramı"nda xam pambıq istehsalının 500 min tona çatdırılması nəzərdə tutulur. Bu il respublikanın 22 rayonunda 132,5 min hektar sahədə pambıq əkini həyata keçirilib və 260 min ton pambıq istehsalı gözlənilir.

Qeyd edək ki, dövlət tərəfindən pambıqçılığa göstərilən dəstək məhsul istehsalının artırılmasında mühüm rol oynayır. Belə ki, dövlət tərəfindən pambığın hər kiloqramına 10 qəpik subsidiya verilməsi, güzəştli şərtlərlə texnika və yanacaqla təminat, alış qiymətinin hər tona görə 50 manat artırılması istehsalı stimullaşdıran tədbirlərdəndir.

# Baş Prokurorluq bəzi KİV-lərdə yayımlanan və həqiqəti əks etdirməyən informasiya ilə bağlı məlumat yayıb



Azərbaycan Respublikasının Baş Prokurorluğu ləğv olunmuş Milli Təhlükəsizlik Nazirliyinin sabiq şöbə rəisi Vüsal Ələkbərovun cəzaçəkmə müəssisəsindən guya vaxtından əvvəl azadlığa buraxılması ilə bağlı bəzi KİV-lərdə yayılan və həqiqəti əks etdirməyən informasiyalarla bağlı məlumat yayıb.

Baş Prokurorluğun mətbuat xidmətinin AZƏRTAC-a daxil olan məlumatında deyilir: **"Bəzi kütləvi informasiya vasitələrində ləğv olunmuş Milli Təhlükəsizlik Nazirliyinin sabiq şöbə rəisi Vüsal Ələkbərovun cəza çəkdiyi cəzaçəkmə müəssisəsindən guya vaxtından əvvəl azadlığa buraxılması və ya məntəqə tipli cəzaçəkmə müəssisəsinə keçirilməsi barədə informasiyalar yayılıb.**

**Həmin məlumatlar həqiqəti əks etdirmədiyindən Baş Prokurorluq tərəfindən qəti şəkildə təkzib olunur.**

**Belə ki, rüşvətalma, hədə-qorxu ilə tələbetmə və sair faktlarla bağlı Baş Prokurorluğun Ağır cinayətlərə dair işlər üzrə istintaq idarəsində istintaqı tamamlanmış cinayət işi üzrə məhkəmə tərəfindən azadlıqdan məhrumetmə cəzasına məhkum olunmuş Vüsal Ələkbərov hazırda Ədliyyə Nazirliyinin Penitensiar Xidmətinin müvafiq cəzaçəkmə müəssisəsində azadlıqdan məhrumetmə cəzasını çəkir.**

**Kütləvi informasiya vasitələrinə bir daha xəbərdarlıq edilməklə, bu kimi halların təkrarlanmaması və həqiqətə uyğun olmayan məlumatların gələcəkdə yayılmaması məqsədilə məlumatları dərc etməzdən əvvəl informasiyanın düzgünlüyünün hüquq-mühafizə orqanlarının, o cümlədən Baş Prokurorluğun mətbuat xidmətləri ilə dəqiqləşdirmələri xahiş olunur".**

# "Nar TV" tətbiqini yüklə, smartfonda sevdiyin kanallara bax




"Nar" Azərbaycan telekommunikasiya bazarında ilk dəfə olaraq, onlayn TV - "Nar TV" tətbiqini təqdim edir. "Nar TV" tətbiqi vaxt və məkan sərhədi tanımır. Belə ki, bundan sonra abunəçilər istənilən məkanda və vaxtda smartfonlarında sevdikləri TV kanallara və verilişlərə rahat şəkildə baxa biləcəklər. "Nar TV" mobil telefonlarda və ya tabletlərdə idman, əyləncə, uşaq, film, xəbər də daxil olmaqla, 100-ə qədər seçilmiş yerli və regional televiziya kanallarına giriş imkanı verir.

"Nar TV" tətbiqini indi yükləməklə istifadəçilər 100-ə qədər kanala 1 ay ərzində ödənişsiz baxa bilərlər. Abunəçilərə rahat şəkildə sevdiyi kanalları izləmək imkanı yaradan "Nar TV" mobil tətbiqini "Google Play" - https://bax.nar.az/nartv-g və "Arr store"dan - https://bax.nar.az/nartv-i telefonlara və ya tabletlərə yükləməli, "Nar" nömrəsindən istifadə edərək qeydiyyatdan keçilməlidir. "Nar TV"nin digər üstünlüyü vaxtınız olmadıqda ötürdüyünüz proqramlara 12 saat ərzində baxmaq mümkünlüyüdür. Aylıq abunə haqqı cəmi 3 AZN-dir. Abunəçilər "Nar TV"-yə "Nar"-ın 4G şəbəkəsindən istifadə etməklə, tam keyfiyyətdə baxa bilərlər.

"Nar TV"də valideyn nəzarət xidməti də mövcuddur. Bunun üçün xüsusi kanalları PİN kod vasitəsilə məhdudlaşdırmaq olar. Qeyd edək ki, "Nar TV" xidməti "Uninet"lə əməkdaşlıq çərçivəsində təqdim edilir. "Nar TV"nin digər üstünlükləri barədə daha ərtaflı məlumatı nar.az internet səhifəsindən öyrənmək olar.

"Azerfon" şirkəti ("Nar" ticarət nişanı) 21 mart 2007-ci ildə fəaliyyətə başlayaraq qısa bir müddətdə Azərbaycanda telekommunikasiya və mobil rabitə sahəsinin aparıcı şirkətlərindən birinə çevrilib. "Nar" ölkədə ilk dəfə olaraq 3G texnologiyasını təqdim edib və geniş 4G şəbəkəsini abunəçilərinin istifadəsinə verib. "Nar" şəbəkəsi hazırda ölkə ərazisinin 93%-ni əhatə edir və 7000-dən artıq baza stansiyası ilə 2,1 milyondan çox abunəçiyə yüksəkkeyfiyyətli xidmət göstərir. 2017-ci ildə keçirilmiş mobil rabitə şəbəkələrinin müqayisəli testlərinə əsasən "Nar" şəbəkəsi mobil zəng xidmətlərinin göstərilməsi üzrə ölkədə ən yüksək nəticəyə nail olub. Sınaqları test xidmətləri üzrə müstəqil beynəlxalq şirkət olan "P3 Communications" keçirib və sınaq metodologiyası əhatəli xidmətlər üzrə müştəri təcrübəsinə əsaslanıb.

# Azercell-in Barama Mərkəzi və Yüksək Texnologiyalar Parkı arasında əməkdaşlıq memorandumu imzalanıb




Ölkəmizdə sahibkarlığın inkişafına, biznes mühitinin formalaşmasına yönəlik uğurlu layihələriylə seçilən "Azercell Telekom" MMC-nin Barama İnnovasiya və Sahibkarlıq Mərkəzi innovativ mühitin inkişaf etdirilməsi üçün bir sıra qlobal təşkilatlar, qurumlar və Qeyri Hökumət Təşkilatları ilə əməkdaşlıq edir. Mərkəz innovasiyalı iqtisadiyyatın inkişafına, biliklərə əsaslanan iqtisadiyyatın qurulmasına, intellektual biznesin dəstəklənməsinə, iqtisadiyyatımızın və xüsusilə, İKT sektorunun rəqabət qabiliyyətliliyinin yüksəldilməsinə öz töhfəsini vermək məqsədilə Rabitə və Yüksək Texnologiyalar nazirliyinin nəzdində fəaliyyət göstərən Yüksək Texnologiyalar Parkı ilə əməkdaşlığa başlayır.

İki qurum arasında imzalanan memoranduma əsasən YT Parkı ilə Azercell arasında elmi-texniki və tədris sahəsində təcrübə mübadiləsi aparılacaq, əməkdaşların ixtisas səviyyəsinin artırılması məqsədilə təlimlər təşkil ediləcək, elmi-texniki innovasiya sahəsində əməkdaşlıq ediləcək, müştərək layihələr hazırlanacaq. Bundan əlavə, mütəxəssis hazırlığında gənc kadrların motivasiya edilməsi və gənc startapçıların yetişdirilməsi də əməkdaşlığın əsas istiqamətlərindəndir. Yüksək texnologiyalar sektorunda təhsil üçün ən yüksək beynəlxalq standartlarda şəxslərin və institutların inteqrasiyasının genişləndirilməsi, laboratoriyaların yaradılması imkanlarının araşdırılması və mövcud laboratoriyalardan və kadr potensialından birgə istifadə edilməsi, eyni zamanda birgə proqramlarda internetə çıxış kimi resursları və imkanları ilə tələbələrin təmin edilməsi də memorandumda əksini tapıb.

Təsisçi:
**Yeni Azərbaycan Partiyası**
Baş redaktor:
Hikmət BABAOĞLU

**www.yeniazerbaycan.com**
**mail@yeniazerbaycan.com**
**Ünvan:** Bakı - AZ-1000, Üzeyir Hacıbəyov - 66
Telefonlar:
**598-37-76, 498-82-21**
**498-81-24, 498-19-84**

İndeks: **67100**
Lisenziya: **N-B-317**
**Tiraj: 6074**
"Kapital Bank"ın Nərimanov rayon filialı
**h/h** - 33080019443900419109
**kod** - 200093
**VÖEN** - 1500486601

İnformasiya mənbələrimiz:
**"AZƏRTAC", "Azadinform", "SİA"**
**Qəzet "Yeni Azərbaycan"ın bilgisayar mərkəzində yığılıb, səhifələnib və "Azərbaycan" nəşriyyatında ofset üsulu ilə çap edilib.**

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur.

**Buraxılışa məsul:**
Zahid İLHAMOĞLU